SƏRİNGÜL SADƏ

KÖNLÜMÜN BARI

II kitab

“Elm və təhsil”
Bakı – 2024

Redaktor: **Elxan MƏMMƏDLİ**
filologiya üzrə fəlsəfə doktoru,
Əməkdar mədəniyyət işçisi
Korrektoru: **Əflatun HÜSEYNOĞLU**
Şair-publisist
Rəyçi: **Əli ŞAMİL**

Kompüterdə yığan: **Validə BƏDƏLOVA**
Dizayner: **Vüsal ABİYEV**

Üz qabığının dizaynı: Vüsal Əmirov

Səringül Sadə. Könlümün barı.
"Elm və təhsil", 2024, 272 səh.

4702000000 qrifli nəşr
N-98-2024

© S.Sadə, 2024

BU ÇƏMƏNİN GÜLÜ RƏNG-RƏNG...

Səringül Sadə – şairə kimi bəlkə də onu çoxları tanımırdı. Elə mən özüm də Səringülün şairliyindən, şeir yazmağından xəbərsiz idim. Onu yaxından tanıdığım otuz ildə bu qeyri-adi qadının çox məziyyətlərindən hali idim. Dəfələrlə böyük bacısı, istedadlı şairəmiz Səadət Buta ilə birlikdə saz-söz məclislərində çox görüşmüşdük. Folklorumuzun, aşıq sənətinin kamil bilicisi kimi Səringülü heç kimlə müqayisə edə bilmirdim. Xüsusən, qədim xalq mahnılarını, itib-batmaqda olan bu əvəzsiz inciləri onun dilindən eşitdikcə bəzən bir folklorşünas kimi özümü qınayırdım da. İndiyə qədər onun yaddaşında yuva salan bu inciləri niyə yazıb-köçürmədiyimə görə özümü danlayırdım. Bəlkə də onunla mütəmadi görüşmədiyimizə görə bu arzumu həyata keçirə bilməmişəm. Onun uzun illər həyat yoldaşı ilə birlikdə dünyanın müxtəlif ölkələrində yaşaması səbəbindən davamlı görüşlərimiz olmadı. İşə bax ki, Səringülün bu imkanlarının sorağı bizdən öncə Türkiyəyə çatmışdı vaxtilə. Belə ki, bir neçə il öncə Səringül xanım bacısı Səadət Buta ilə birlikdə Qars televiziyasında saat yarım canlı yayımda, xüsusən Başkeçiddə yaranmış qədim nəğmələri, Borçalının saz-söz boxçasında qorunan neçə-neçə hikmət dolu folklor

nümunələrini yüksək səviyyədə türk tamaşaçılarına, folklor xiridarlarına çatdırıblar. Səringül həm də aşıq musiqisini dəlicəsinə sevən, bəzən də münasib bildiyi məclislərdə bu saz havalarının müşayiəti ilə aşıqlarımızın gözəl sözlərini həzin və məlahətli səsi ilə ifa etməyi bacarandı.

Bütün bu cəhətləri ilə yanaşı Səringül xanımın sayagəlməz keyfiyyət və əlamətləri də həqiqətən məni heyran etmişdi. Xüsusən, onun xeyirxahlığı, gülərüzlülüyü, həmişə yazığın, fağırın, ehtiyacı olanın yanında olması, açıq süfrəsi, səxavəti, sözü bütövlüyü, yalandan, böhtandan uzaq olması bir Türk xanımı kimi onun ali keyfiyyətlərindəndir.

Səringül xanım yurdu, vətəni, torpağı odlu məhəbbətlə sevən, Nigar, Həcər qeyrətli xanımlarımızdandır. 44 günlük Vətən müharibəsi dövründə Amerikada yaşaya-yaşaya bir neçə dəfə cəbhə bölgələrinə maddi yardım göndərməsi onun təqdir olunmalı cəhətlərindən sayılmalıdır. Bir neçə hərbi hissə komandirlərinin bu münasibətlə ona ünvanladıqları təşəkkürnamələr bu xanımın bir daha yüksək vətənpərvərliyindən xəbər verir.

"Çox gəzən çox bilər" – deyib atalar. Səringül xanımın az qala dünyanın yarısını səyahət etməsi onun dünyagörüşünə, savadına, həyata baxışına böyük təsir göstərmişdir. Uzun illər Amerikada, Yeni Zellandiyada, Avstriyada, Böyük Britaniyada, Fransada, İsveçdə və onlarla ölkələrdə yaşaması, səyahət etməsi bir insan ömrünün rəngarəngliyindən xəbər verir.

Səringül xanımın bir neçə dil bilməsi də onun dünyagörüşünə az təsir etməmişdir. Xüsusən, ingilis, rus, gürcü və türk dillərini bilməsi onun əcnəbi insanlarla ünsiyyətinə böyük köməklik göstərmişdir.

Bəzən öz-özümə düşünürəm – bu qədər müsbət enerji, bu həyat eşqi, bu ünsiyyət, bu səmimiyyət bir adamda necə cəmləşib görəsən?! Az sonra bu sualın cavabını da özüm tapıram. Nəsildən-nəcabətdən gəlirmiş bütün bu keyfiyyətlər. İndi haqq dünyasında uyuyan Ömər kişidən, bu gün 100 yaşında gəlinlik çöhrəsini itirməyən anası Xanım nənədən güc alıb Səringül. Özünə "pirim" dediyi böyük qardaşı, şair İladi Ömərоğlundan, öz istedadı ilə təkcə Borçalıda, Azərbaycanda yox, bütün türk dünyasında tanınıb-sevilən şairə bacısı Səadət Butadan gəlir bu məziyyətlər.

Səringül Ömər qızı 1958-ci ildə Borçalının Qızılkilsə (Dəmirçi Həsənli) kəndində anadan olub. Həmin kənddə orta məktəb bitirib. Atası Ömər kişi elin-obanın sayılıb-seçilən kişilərindən olub. Gəncliyindən başlayaraq gözəl və mənalı bayatılar müəllifi kimi tanınıb. 1955-ci ildə Tiflisdə Puşkin adına Pedaqoji İnstitutu bitirib. Ömrünün çoxunu müəllimliklə məşğul olub. 1998-ci ildə Bakı şəhərində rəhmətə gedib.

Əziziyəm, göynədi,
Dərdliyə yer, göy nədi?
Qərib olan qürbətdə,
Hey ağladı, göynədi.

– deyən Ömər kişinin övladları da sanki ondan güc

alıb şeir yazmağa başladılar. Oğlu İladi, Nəbi, qızı Səadət və Ömər kişinin digər uşaqları da zaman-zaman şeirlər qoşdu, aşıqların dilinə, sazına düşdülər. Bu gün 13 kitabı işıq üzü görmüş İladi Ömər oğlu, elə o qədər də kitabları nəşr olunan Səadət Buta tanınmış söz adamları kimi böyük hörmət sahibidirlər.

Bu ailənin şıltaq balası, gülərüz və qayğıkeş xanım kimi tanıdığım Səringül xanım şeir-sənət ocağında yaşayıb böyüyə-böyüyə şeir yazmaya bilməzdi. Sən demə, Səringül xanım da digər bacı-qardaşları kimi körpəlikdən şeir yazırmış. Hətta qəzet və jurnallarda da nəşr olunurmuş. Mənim xəbərim yox imiş. Bu yaxınlarda mənə müraciət edəndə, deyəndə ki, Elxan qağa, ay "Sarıtel" Elxan, şeirlərimi kitab eləmək istəyirəm. Xahiş edirəm redaktoru siz olasız, məmnuniyyətlə razı oldum. Səhərsi görüşdük. Qovluqları görəndə heyrətə gəldim.

Maşallah, nə qədər şeir gətirmişdi? Bir neçə qalın dəftərdə gözəl xətlə yazılmış bu şeirlərlə tanış olmağa başladım. Səbir və təmkinlə oxumağa başladım. Bəzi şeirlərdə xalqdan gələn ifadələr, bədii təsvir vasitələri, epitetlər, idiomatik ifadələr, bəzi şeirlərdə acı tənqid, bir çoxunda vətən həsrəti... Oxuduqca Səringülü kəşf etməyə başladım. Şeirlərini bəzən Səringül, çox vaxt isə "Sadə" təxəllüsü ilə təqdim etməsinin səbəbini telefonla soruşduqda dedi ki, "Sadə" təxəllüsünü mənə qardaşım İladi məsləhət bilib, mən də qəbul etmişəm.

Bir vacib məqamı da oxucuların nəzərinə çatdırmaq istərdim. Kim Səringülün həyatı haqqında bilmək istəyir-

sə, onun şeirlərini oxusun. Çünki bu şeirlərdə Səringülün demək olar ki, bütün həyatı əks olunub. Onun ataya, anaya, qardaş-bacıya, yaxın qohumlara, elin üzdə olan xeyirxah adamlarına yazdığı hər bir şeiri ürəkdən gələn sözlərdir. Borçalı sevdalısı kimi bu bölgəyə münasiəti, sevgisi, Türk dünyasına olan məhəbbəti şair kəlmələrində çox səmimi və inandırıcı görünür. Şairə xanım bəzən yaramaz və xain, xoflu adamları da unutmur, onları da qamçılayır, düz yola dəvət edir.

Ömrünün bir çox illərini qürbət ellərdə keçirən şair Vətən sevgisini izhar etməklə yanaşı, qürbətin yalançı baş sığallamalarını pisləyir, uca dağlarımız, gen dərələrimiz, yaşıl biçənəklərimiz üçün darıxdığını aydın dillə təqdim edir.

Baxım dan sökülsün, günəş boylansın,
Cəh-cəh vursun, yatan quşlar oyansın.
Naxır, ilxı, sürü yaylaq dolansın,
Siz məni dağlara tezcə yetirin.

...Hər çiçəyi min bir dərdin dərmanı,
Safdərə, Şamdüyə, Əyri qar hanı?
Sadəyəm, seyr edim qoy mən Sarxanı,
Siz məni dağlara tezcə yetirin.

Həyatda xeyirxahlıq missiyası ilə yaşayan, öz əməli işlərində bu keyfiyyətlərə xüsusi əhəmiyyət verən Səringül Sadə şeirlərində də bu xususiyyətlərə sadiq qalır:

Dağdan aşan karvanımı əyləyin,
Əyləyin, Allah eşqinə, əyləyin.
Darda qalan insanlara köməyi,
Eyləyin, Allah eşqinə, eyləyin.

Şairə xanımın dünyaya baxışı, ona münasibəti də maraq doğurmaqdadır. Adətən bir çox şairlərin dünyanı "vəfasız" "etibarsız", "zalım" kimi qiymətləndirdikləri halda, o tamam başqa yöndən qiymət verir dünyaya.

Viran dünya, yalan dünya deməyin,
Verib geri alan dünya deməyin.
Bu dağılmış-talan dünya deməyin,
Deməyin, Allah eşqinə deməyin.

Bəzən özü də giley-güzarını dünyadan əsirgəmir:

Mən aman istədim, divan eylədi,
Nuhun tufanını yalan eylədi,
"Onu dağıdaram" güman eylədi,
Yazığı gəlmədi mənə dünyanın.

Bəxti-iqbalımı yana döndərdi,
Yığdı dərd-qəmini mənə göndərdi.
Göydən od ələdi, alov əndərdi,
Yazığı gəlmədi mənə dünyanın.

Səringülün bir çox şeirlərində klassik aşıqlarımızdan gələn, dastanlarımızda təsadüf etdiyimiz təbii bədii ricətlərə də tez-tez təsadüf edirik. Bu da onun həqiqətən də aşıq yaradıcılığına, ustad aşıqların poeziyasına yaxşı bələd olmasından xəbər verir:

Ay hazarat, yaman dərdə düşmüşəm,
Ərənlərə, piranlara söyləyin.
Sahibkaram, qəm bazarım var mənim,
Pul işləmir, alanlara söyləyin.

Bilər cümlə-cahan, eşidər kar da,
Qoyar yalan dünya insanı darda.
Gedər, qalan deyil dövlət də, var da,
Sadə köçər, qalanlara söyləyin.

Çoxdur bu kitabın məziyyətləri. Şübhəsiz, bu kitabı əldə edən hər bir kəs onlarla əyani tanış ola biləcək. Kitaba Səringül Sadənin özünə başqa qələmdaşlarının həsr etdikləri şeirləri "Səringül Sadəyə həsr olunmuş şeirlər və ürək sözləri" başlığı altında verilmişdir. Bu şeirlər Səringülə olan el məhəbbətinin təzahürü kimi qiymətlidir. Səringülün kimliyini daha aydın dərk etmək baxımından bu şeirlərin dəyəri danılmazdır.

Təbii ki, Səringül Sadənin qələmə aldığı şeirlərin məziyyətləri sadaladıqlarımızla məhdudlaşmır. Bu barədə çox danışmaq, çox yazmaq olar. Kitabdakı şeirlərdə daha nələrdən bəhs edilir?

Bu məqamda sözü şairin özünə veririk.

Nəvələrə yadigardı bu kitab,
Çəmənzardı, laləzardı bu kitab.
Bizlər üçün yaz-bahardı bu kitab,
Çalışın ki, heç gülləri solmasın!

Bəhs eyləyir, el-obadan, vətəndən,
Mərd igiddən, dada-hoya yetəndən.
Xahişimdi, ay eloğlu bil, səndən,
Kimsə buna yad-biganə olmasın!

Hər vərəqdə Vətən ətri duyulur,
Oxuduqca dərdlər-qəmlər yuyulur.
Sadə sözü hikmətindən doyulur,
Arif olan bunu əldən salmasın!

Səringül Sadəyə gələcək həyatında və yaradıcılığında uğurlar arzusu ilə

Elxan MƏMMƏDLİ
filologiya üzrə fəlsəfə doktoru,
Əməkdar mədəniyyət işçisi

ÜZ TUT YENƏ DAĞLARA

(Səringül xanım xəstələnərək Marneulidə mülaicə olunarkən yazdım bu şeiri. Dağlar qızının aran yerində müalicə alması mənə başqa cür təsir etdi)

Dağlar qızı, dağda məlhəm yoxdumu,
Üz çevirib dağdan getdin hara, hey?!
Dağın şehi, tər gülləri, havası,
Etmədimi dərd-sərinə çara, hey?!

Dağ Vətəndi, dağ obadı, dağ eldi,
Şah dağıdı, Ləlvərdi, Çənlibeldi.
O sərhəddi, o sınırdı, təməldi,
Ağ günümüz onsuz keçər qara, hey!

Aran yerin baxçasında gül açmaz,
O yerlərdə xəstələr də sağalmaz.
Üz tut dağa, dağda insan qocalmaz,
Qayıt, bacım, dağlara dübara, hey!

Elxan MƏMMƏDLİ
04.11.2021

BAYATILAR

Pətəkdə balım bacı,
Qadanı alım, bacı.
Qardaşın xəbər alır,
Necədir halın, bacı?

Aydın oldu,
Ay doğdu, aydın oldu.
Sənnən xoş xəbər gəldi,
Gözlərim aydın oldu.

Dağlar qızı dağ gəzər,
Kef-damağı çağ gəzər.
Mənim bacı dediyim,
Hər vaxt üzü ağ gəzər.

Keçmədim, ada, sənnən,
İçmədim bada sənnən,
Arzumdur, gözəl bacım,
Rədd olsun qada sənnən.

Gül verim dəstə-dəstə,
Gülü qoy gülün üstə.
Başqa peşkəşim yoxdu,
Təki mənnən gül istə.

Saçları burma bacı,
Sözləri xurma bacı.
Üz tut dağlara sarı,
Aranda durma, bacı.

Yetişib bağımda nar,
Peşkəş edim, gəl apar.
Dosta hörmət, ehtiram,
Qocalsam da yenə var.

Elxan MƏMMƏDLİ

AZƏRBAYCAN

Ümid yerim Azərbaycan,
Torpağın ləl, daşın mərcan,
Yaşamaram sənsiz bir an.
Sən nəfəsim, mən quru can,
Azərbaycan, Azərbaycan!

QOŞMALAR

BU KİTAB

Nəvələrə yadigardı bu kitab,
Çəmənzardı, laləzardı bu kitab.
Bizlər üçün yaz-bahardı bu kitab,
Çalışın ki, heç gülləri solmasın!

Bəhs eyləyir, el-obadan, vətəndən,
Mərd igiddən, dada-hoya yetəndən.
Xahişimdi, ay eloğlu bil, səndən,
Kimsə buna yad-biganə olmasın!

Hər vərəqdə Vətən ətri duyulur,
Oxuduqca dərdlər-qəmlər yuyulur.
Sadə sözü hikmətindən doyulur,
Arif olan bunu əldən salmasın!

EL DƏRDİ

Əlim açıb yalvarmışam Allaha,
Köməyim ol, Ya Məhəmməd Mustafa!
Çox görmüşəm, dərd göstərmə bir daha,
Dözəmmirəm, çox ağırdı el dərdi.

Qoyub gəldik başı qarlı dağları,
Cəfasını çəkdiyimiz bağları.
Düşmən vurdu xəstələri, sağları,
Dərdə saldı çox iyidi, çox mərdi.

Neçəsi ürəkdən yaralı qaldı,
Ana balasından aralı qaldı.
Qürbətdə çox bəxti qaralı qaldı,
Daha çəkəmməyir Sadə, bil dərdi!

SİZ MƏNİ DAĞLARA TEZCƏ ÇATDIRIN

Yoxdan var eyləyən, ey Pərvərdigar,
Qulam, kərəm eylə, ya öldür qurtar.
Ay ellər, arzuma bir verin qərar,
Siz məni dağlara tezcə çatdırın.

Yadıma düşübdü güllər-çiçəklər,
Gül üstə oynaşan o kəpənəklər.
Hərdən ləngər vuran göy biçənəklər,
Siz məni dağlara tezcə çatdırın.

Baxım dan sökülsün, günəş boylansın,
Cəh-cəh vurub yatan quşlar oyansın.
Naxır, ilxı, sürü yaylaq dolansın,
Siz məni dağlara tezcə çatdırın.

Dağılsın dağların çəni-dumanı,
Görüm binə tikib, dəyə quranı.
Sürü qarışanda çaşan çobanı,
Siz məni dağlara tezcə çatdırın.

Hər çiçəyi min bir dərdin dərmanı,
Sarfdərə, Şamdüyə, Əyriqar hanı?
Sadəyəm, seyr edim qoy mən Sərxanı,
Siz məni dağlara tezcə çatdırın!

QIYIRLAR

Səyyah kimi dolanıram dünyanı,
Gözüm görür yaxşıları, yamanı.
Borçalıya – kəndimizə tay hanı?
Dostlar üçün son loxmanı qıyırlar.

Qürbət eldə şır-şır axan bulaq yox,
Canhacanla qarşılanan qonaq yox.
Nə qovurma, nə fəsəli, qaymaq yox,
Başkeçiddə dosta canı qıyırlar.

Naxır, ilxı bu dağları dolanmır,
Kabab üçün çöldə ocaq qalanmır,
Qürbət eldə Sadə xoşbəxt olammır,
Ona yalnız "ah-amanı" qıyırlar.

YOX
(Qürbətin dağına)

Dərdə-qəmə gücü yetmir bu dağın,
Suyu axıb, otu bitmir bu dağın.
Toz-dumanı niyə getmir bu dağın,
Necə dağdır yaylayan yox, gəzən yox.

Görmədiyim neçə ildi, ay deyil.
Qürbət dağı heç Şindiyə tay deyil.
Duman-çiskin deyən bura pay deyil,
Bulaq üstə süfrələri düzən yox.

Dərdim-qəmim dilə gəlməz bir ətək,
Nə faydası dağ həsrəti çək də, çək.
Səringül Sadəyəm, qürbətdə mən tək,
Dağlar deyib ürəyini üzən yox!

ALLAH EŞQİNƏ

Dağdan aşan karvanımı əyləyin,
Deyiləsi bir sözüm var, dinləyin.
Darda qalan insanlara köməyi,
Eyləyin, Allah eşqinə, eyləyin.

Viran dünya, yalan dünya deməyin,
Verib, geri alan dünya deməyin.
Ey dağılmış, talan dünya deməyin,
Deməyin, Allah eşqinə, deməyin.

Yerin, göyün özü gözəl söyləyin,
Bulaqların gözü gözəl, söyləyin
Hər kəlməni-sözü gözəl söyləyin,
Söyləyin, Allah eşqinə, söyləyin.

ADAM VAR Kİ...

Adam var ki, göydən enən mələkdi,
Adam var ki, özü boyda kələkdi.

Adam var ki, könülləri şad eylər,
Adam var ki, şeytan ondan dad eylər.

Adam var ki, sevir eli-obanı,
Adam var ki, satır yurdu-yuvanı.

Adam var ki, baldı, şirin-şəkərdi,
Adam var ki, zəy-zəqqumdu, zəhərdi.

Adam var ki, yolu Haqqın yoludu,
Adam var ki, şər-böhtanla doludu.

Adam var ki, əzbər bilir Quranı,
Adam var ki, yoxdu dini-imanı.

Adam var ki, kəsməz xeyir-duası,
Adam var ki, qırx qazana çalası.

Adam var ki, öz sözünün ağası,
Adam var ki, əldə qalıb yaxası.

Adam var ki, hey yaradıb, hey qurar,
Adam var ki, evlər yıxıb-uçurar.

Adam var ki, əksik olmaz qonağı,
Adam var ki, bağlı qalar otağı.

Adam var ki, Sadə ona can deyər,
Adam var ki, xalqa verər qəm-qəhər!

SÖZ VAR…

Söz var rəngini soldurar,
Söz var saçını yoldurar.

Söz var qapını bağlayar,
Söz var sinəni dağlayar.

Söz var ədəbli-ərkanlı,
Söz var iynəli-tikanlı.

Söz var əlvan-göyqurşağı,
Söz var boğazdan aşağı.

Söz var karvan dayandırar,
Söz var ürək bulandırar.

Söz var kərə yağa bənzər,
Söz var qara dağa bənzər.

Söz var dadlı, həm də duzlu,
Söz var uzun-sərt buynuzlu.

Söz var sığmaz ağza-dilə,
Söz var dərddi bütün elə.

Söz var dili uzun eylər,
Söz var əri məcnun eylər.

Söz var könül şad eylər,
Söz var insan dad eylər.

Söz var arif meydanında,
Sadə onun sorağında!

HEÇ BİZİM DAĞLARIN ƏVƏZİ YOXDUR

Alçaqlı-ucalı neçə dağlar var,
Dağlarsız bu könlüm eyləyir qubar.
Başqadır Şamdüyə, Sərxan, Əyriqar,
Heç bizim dağların əvəzi yoxdur.

Başkeçid başdadı, dağlar həmdəmi,
Qürbətdə onlarsız çəkirəm qəmi.
Tutubdu Şindinin adı aləmi,
Onun əzəməti, vüqarı çoxdur!

Bizim dağlar olub igid məskəni,
Çoxdu yaylaqları, çoxdu gülşəni.
Candan artıq sevir Sadə Vətəni,
O dağlar qızıdı, gözləri toxdu!

TANRIMIN

Bəxt yazanda iqbalımı düz yazıb,
Bir baxışla yaxşı-yaman sez, yazıb,
Geyin-keçin, gen dünyanı gəz yazıb,
Qələminə qurban olum Tanrımın.

Sınayıbdı o, səbrimi bol verib,
Dara salıb, qəfil açıq yol verib.
Seyr etməyə meşə, çəmən, kol verib,
Məlhəminə qurban olum Tanrımın.

Eşq-ilhamı qaynar bulaq, çay verib,
Nəvələri sanki günəş, ay verib.
Oğul-qızdan mən Sadəyə pay verib,
Kərəminə qurban olum Tanrımın!

DÜNYANIN
(İladi Ömərоğluna nəzirə)

Mən aman istədim, divan eylədi,
Nuhun tufanını yalan eylədi,
Onu dağıdaram güman eylədi,
Yazığı gəlmədi mənə dünyanın.

Bəxti-iqbalımı yana döndərdi,
Yığdı dərd-qəmini, mənə göndərdi.
Göydən od ələdi, alov əndərdi,
Yazığı gəlmədi mənə dünyanın.

Hələ görünməmiş bir qan eylədi,
Gerçək bir ömrümü yalan eylədi.
Səringül qəddini kaman eylədi,
Yazığı gəlmədi mənə dünyanın.

SÖYLƏYİN

Ay hazarat, yaman dərdə düşmüşəm,
Ərənlərə, piranlara söyləyin.
Sahibkaram, qəm bazarım var mənim,
Pul işləmir, alanlara söyləyin.

Dünya yaman qara tüstü-dumandı,
Mələk donlu çənbərlənmiş ilandı,
Hər bir yanı qasırğadı-tufandı,
Vara tamah salanlara söyləyin!

Bilər cümlə cahan, eşidər kar da,
Qoyar yalan dünya insanı darda.
Gedər, qalan deyil dövlət də, var da,
Sadə köçər, qalanlara söyləyin.

BORÇALI

Aranlı-dağlısan, gözəl məkansan,
Yurdumsan, yuvamsan, canımda cansan,
Tanrımızdan bizə bir ərməğansan,
Adındır qədimdən Ulu Borçalı!

Qarayazı, Sarvan, Bolnis, Başkeçid,
Buna dünya-aləm olubdu şahid.
Hamsı əhdə sadiq, hamsı mərd-igid,
Sinəsi ərənlə dolu Borçalı!

Sevəndi aşığı, sevəndi sazı,
Şirindi ləhcəsi, xoşdu avazı.
Sənsən Səringülün arzu-murazı,
İlhamın qanadı-qolu, Borçalı!

EDƏK

Əl açaq Tanrının dərgahına biz,
Müqəddəs pirlərə salavat edək.
Bədəndən çıxmamış ruhumuz, gəlin,
Məkkə, Mədinəni ziyarət edək.

Hər zaman Allahın tutaq yolunu,
Döyüb, incitməyək Tanrı qulunu.
Yerə yıxılanın tutaq qolunu,
Cavanlara bunu nəsihət edək.

Vətəni düşünək, sevək milləti,
Ata-anamıza verək diqqəti.
Səringül Sadənin budur söhbəti,
İslam qanununa riayət edək!

ON BİR AYIN SULTANI

Yolunda tutmuşam düz bir ay oruc,
Yarəb, orucumu sən qəbul eylə.
Gecə-gündüz qəlbimdəsən-qəlbimdə,
Yarəb, orucumu sən qəbul eylə.

On bir ayın sultanıdır-sultanı,
O qoruyur ruhumuzu, həm canı.
Dərddən uzaq eylə cümlə cahanı,
Yarəb, duamızı sən qəbul eylə!

Bizlərə bəxş etdin şirin həyatı,
Adına yazmışıq qəzəl, bayatı.
Yolunda verilən nəzir-zəkatı,
Kəsilən qurbanı sən qəbul eylə!

Sadə ona gətiribdi pənahı,
Yox etsin ürəkdən amanı-ahı,
Çağırıram Qadir olan Allahı,
Bizim duaları sən qəbul eylə.

BU BAYRAM

Cümlə müsəlmanlar bayram eyləyir,
Bizə ən müqəddəs gündü bu bayram!
Əl açıb Tanrıya, imdad diləyək,
Bizlərə imandı, dindi bu bayram.

Bayramlar içində yox onun tayı,
Allah, qəbul eylə verilən payı.
Kaş çox ola belə günlərin sayı,
Kasıblar sevindi, güldü bu bayram.

İman işığına yığılıb hamı,
Fərəhlə gözlərik biz bu axşamı.
Şirin şərbət ilə doldurun camı,
Süfrələrdə şamlar yandı bu axşam.

Ürəklərə işıq, qəlblərə nurdu,
Tac olub könlümün başında durdu.
Sadə bu gecə də yuxuda gördü,
Özünü Kəbədə sandı bu bayram!

ƏYLƏN-ƏYLƏN

Dünyamı aparıb özünnən gedən,
Qalmadı cismimdə can, əylən-əylən.
Quruyub tərpənmir ağzımda dilim,
İşarət eylədim, qan, əylən-əylən.

Tökülüb üstümə dağların daşı,
Kür, Araza dönüb gözümün yaşı.
Çal-çarpaz yaradı bağrımın başı,
Donub damarımda qan, əylən-əylən.

Ot basıb cığırın, izin Sadənin,
Düşür ayaqlara sözü Sadənin,
Sənə qurban olsun özü Sadənin,
Açılsın üstünə dan, əylən-əylən.

QANLI FƏLƏK

Qanlı fələk, nə tutmusan yaxamdan,
Yoxmu qorxun haqq qurduğu divandan?
Bayquşsanmı zövq alasan virandan,
Əl çəkməsən əllərini dağlaram.

Səni hal aparıb, cinmi oynadıb,
Yoxsa aralığı şeytanmı qatıb.
Söylə dişin təkcə mənəmi batıb,
Tapdayıb sinəni əzib-çığnaram.

Dərman olsa, zəyi sənə qıymaram,
Qisasmı qiyamətə qoymaram.
Qanın içsəm, Səringüləm, doymaram,
Nişan alıb, sağ gözündən oxlaram.

NƏSİHƏT

Kim eyləsə hər vaxt elə hörməti,
El də verər ona qədir-qiyməti.

Yurd satanı kimsə sevməz, el qınar,
Yurd sevəni el özünə dost sanar.

Səxavətlə hər kəs sərsə süfrəni,
Ulu Tanrım göstərəcək bəhrəni.

Kimsəsizə kimsə açarsa qucaq,
O dünyada yeri cənnət olacaq.

Kim götürsə ana yükü belinə,
Qızıl olar, torpaq alsa əlinə.

Zibillikdə açılan gül iylənməz,
Hər gördüyün, eşitdiyin söylənməz.

Səringüləm, nəsihətim bax budur,
Kim sevirsə el-obanı, o, udur!

DƏLİ KİMİ SEVİRDİM BİR OĞLANI

Qönçə idim pardaqlanıb açmamış,
Öz ətrimi dörd bir yana saçmamış.
Bir quş idim mən yuvamdan uçmamış,
O Məcnundu, sanki mənsə cananı,
Dəli kimi sevirdim bir oğlanı!

Kəndimizdə çalınanda toy-düyün,
Bəzənirdim-düzənirdim həmin gün.
Deyim bunu, mən nadana siz gülün,
O, gəlməsə mən olurdum mehmanı,
Dəli kimi sevirdim bir oğlanı!

İllər ötdü, yenə kənddə toy oldu,
Məni sevən oğlan mənsiz bəy oldu.
Dedilər ki, Sadə eşqdən səy oldu,
Yalan oldu, deyən Nuhun tufanı,
Dəli kimi sevirdim bir oğlanı!

GÖZƏL

Açılan güllərə bir nəzər eylə,
Ağı da gözəldir, alı da gözəl.
O gələn gözəlin bax əndamına,
Özü də gözəldir, şalı da gözəl.

Dərdini çəkirəm keçən çağların,
Vurğunu olmuşam bağça-bağların.
O ömür sürdüyüm bizim dağların,
Yamacı da gözəl, yalı da gözəl.

Çoxdu şirinliyi ana dilimin,
Yoxdu bərabəri çəmən-çölümün,
Sadəyəm, deyirəm oba-elimin,
Soğan-sarımsağı, balı da gözəl.

EYLƏ-EYLƏ

Dəryaya qərq olub suda batıram,
Uzat əllərini, hoy eylə-eylə.
Alovsuz yanıram, yoxdu əlacım,
Axıt göz yaşını, çay eylə-eylə.

Olsun ömrüm-günüm sənə sadağa,
Salma el içində məni qınağa,
Saralmış yanağa, əsən dodağa,
Bircə təbəssümü pay eylə-eylə.

Eşqin şahı idim, taxtdan düşmüşəm,
Üzümə gülməyən bəxtdən küsmüşəm.
Qəmlə yoğrulmuşam qorda bişmişəm,
Qarlı qış ömrümü yay eylə-eylə!

Gözümü zilləyib sənə baxıram,
Canı eşq oduna bil ki, yaxıram.
Eşqimin önündə mən bir fağıram,
Yadın arzusunu zay eylə-eylə.

Dünyaya gəlmişəm qanlı fevralda,
Qalmışam həmişə dərddə-məlalda.
Mənim gözüm qalıb sən pürkamalda,
Sadəni özünə tay eylə-eylə.

DÜNYANIN

Dəli könlüm, yığ ağlını başına,
Nə tutubsan yaxasından dünyanın?
Demirsənmi çəkər səni oyuna,
Al dərsini Butasından dünyanın.

Hər gördüyün parıltıya ləl demə,
Dili yoxsa bu dünyaya lal demə.
Ağbirçəksən, ona viran qal demə,
Səsin gəlmir harasından dünyanın?

Zəmanənin zalımı var, zoru var,
Ey Səringül, haqq-nahaqqı, şəri var.
Zalımların cəhənnəmdə yeri var,
Qorxmursanmı xətasından dünyanın!?

EY PƏRVƏRDİGAR

Yoxdan var eyləyən ey Pərvərdigar,
Daşa döndər tamaha qul olunca.
Kəs ömrümü al canımı, tök gözü,
Baxar olsam var-dövlətin dalınca.

Gözəl nə var, məhəbbətdən yaranı,
Darda-gendə hey yarını yar anı,
Yar sağaldar yar qəlbində yaranı,
Canım çıxdı yar könlünü alınca.

Ata-ana Tanrımızın kölgəsi,
Buludlardı yerlə-göyün pərdəsi,
Verib-alır, sınaq edir hər kəsi,
Sadə quldu bu hikmətə ölüncə.

BACI QARDAŞINDAN ÜSTÜNDÜ-ÜSTÜN!

Qardaş var həmişə könül bulayar,
Bacı qardaş deyib torpaq yalayar.
Onu gözlərinin işığı sayar,
Bacı qardaşından üstündü-üstün.

Əgər xəstələnib ağrısa qardaş,
Bacı onun üçün tökər qanlı yaş.
Qardaş ayağına əgər dəysə daş,
Bacısı dolanar üzgündən-üzgün!

Yaxşı anlayarsan, gəz bu aləmi,
Bacılı qardaşın çoxalar dəmi.
Bacısız qardaşın azalmaz qəmi,
Səringül sözüdü düzgündən-düzgün!

QADIN VAR...

Qadın var, həyadan-ardan uzaqdı,
Yaxşı bacardığı yeyib-yatmaqdı.
Arzu olunmayan üzlü qonaqdı,
Olmaz eləsinin hörmət-izzəti.

Qadın var dilini saxlaya bilmir,
Yerində ağlayıb, yerində gülmür.
Davadan-dalaşdan geri çəkilmir,
Kəsilmir heç zaman sözü-söhbəti.

Qadın var anlamır gül-çiçək nədir,
Gözəlliyi sevən bir ürək nədir.
Barmağın şam etsən heç bilməz qədir,
Sadənin bax ona yoxdu rəğbəti.

DÜNYA

Deyəsən tərsinə dönübdü çarxı,
Meylini salıbdı nadana dünya.
Başından var tökür qanmaz insanın,
Dərdini yükləyir qanana dünya.

Kələfi dolaşsın ara vuranın,
Könlü qan ağlasın, könül qıranın.
Canı oda yansın can yandıranın,
Bənzər su üstündə samana dünya!

Sadə nə söyləsin bilmir cahana,
Qoymur ağız aça əhli-ürfana.
Haq sənsən söyləyir haqqı danana,
Əzəldən uyubdu yalana dünya!

KÖNLÜM

Gahdan qəvvas olub dəryada üzür,
Eyləyir min arzu-diləyi könlüm.
Gahdan quşa dönüb göylərdə süzür,
Tanrıdan gözləyir köməyi könlüm.

Gahdan dalğalanır, dönür ümmana,
Gahdan kainatı çəkir nizama,
Gahdan ətrafını salır sahmana,
Güldürmək istəyir ürəyi könlüm.

Ey Sadə, yaxşılıq qalır insana,
Nəzər sal, yaxşı bax, keçən karvana.
Sığışmaz dağ-daşa, nə asimana,
Varlığı dünyanın bəzəyi könlüm.

DEYİR

Bayquş sifətlidir, kaftar bədənli,
Yapışır insana necə ki, zəli.
Ağıl yox başında, dəlidi-dəli,
Bəhlul Danəndəyəm, Loğmanam deyir.

Onun boş başına bir söz batmayır,
Gecələr yerində rahat yatmayır.
Evdə arvadına gücü çatmayır,
Utanıb-qızarmır, sultanam deyir.

Doğası deyildi onu heç ana,
Bazarda göy satır, çıxmır bir yana.
Səringül Sadəni gətirib cana,
Başı qarlı dağam, aranam deyir!

VƏTƏN HƏSRƏTİ

Yalqızlıq çətindi, mən dözüm necə,
Bakıda gündüzdü, qürbətdə gecə.
O bizim dağlara getsəydim bircə,
Səcdə eyləyərdim daşa, torpağa.

Bizim Borçalıda hər yan gəzmişəm,
Şamdüyə, Əyriqar, Sərxan gəzmişəm.
Bu qürbət ellərdə candan bezmişəm,
O biz tərəflərə canım sadağa.

Mən qürbət diyarda görmüşəm sitəm,
Böyük şəhərlərdə gözüm olub nəm,
Sadəyəm, vətəndən uzaq düşmüşəm,
Hey həsrət qalmışam Qarabulağa!

BACILARIM

Allahım xoş gündə eyləyib əta,
Gözümün nurudu Səadət Buta,
İnanmıram ona kimsələr çata,
O, Vətən eşqiylə yazıb-yaradır.

Bir bacım da vardı, şirincə canım,
Səliqə-sahmanlı Elmira xanım.
Yaman tezcə köçdü bacım-hayanım,
O da sel aparan başqa Saradır.

Mənim Gülnar bacım gözümün nuru,
O, aydan arıdır, sudan da duru.
Odur Səringülün fəxri-qüruru,
Bizim sonbeşikdir-ciyərparadır!

SÖZ DEYƏRƏM

Söz deyərəm, sözlərimi alana,
Söz deyərəm, qulağında qalana.

Söz deyərəm, utanaram düz olmaz,
Söz deyərəm, sözüm üstə söz olmaz.

Söz deyərəm, şeytan məni qandırar,
Söz deyərəm, öz canımı yandırar.

Söz deyərəm, sağalmayan iz qalar,
Söz deyərəm, qayıtmağa üz qalar.

Söz deyərəm, Haqqa dönüb şər boğar.
Söz deyərəm, camalına nur doğar.

Söz deyərəm, cin toxunar, hal vurar,
Söz deyərəm, dil-dil ötən lal olar.

Söz deyərəm, yara üstə duz olar,
Söz deyərəm, xəstəyə qar-buz olar.

Söz deyərəm, nadan kəsə gülüncdü,
Söz deyərəm, əldə yalın qılıncdı.

Söz deyərəm, könül alar, ev qurar,
Söz deyərəm, Sadə gedər, söz durar!

AĞLAR-AĞLAR

Bülbülü gəlməsə açan güllərin,
Fəğan eylər bağda gül ağlar-ağlar.
Fələk sinəsini dağlayan kəslər
Gün nədir, ay nədir, il ağlar-ağlar.

Ustad qoymaz şagird dərsin kəm ala,
Elm alan savadlı yetər kamala,
Bir insan mərifət, insafdan qala,
Ömrün sonunadək bil, ağlar-ağlar.

Namərd canı yüz yerindən oxladı,
Yar dediyim geri dönüb baxmadı.
Məni dərdi, başqa gülü qoxladı,
Sadə qan-yaş tökər, dil ağlar-ağlar.

BACI

Böyükdür bacıda qardaş istəyi,
Bu eşq ilə vurur onun ürəyi.
Hamının olubdur bacı gərəyi,
Bacısız qardaşın dərd-məlalı var.

Bacılar and içir qardaş başına,
Mən qurbanam deyir torpaq-daşına.
Qardaşın şad günü gələr xoşuna,
Bax bacının belə gözəl halı var.

Qardaş sevən kəsin öpüm gözünü,
Tanrım söndürməsin ocaq-közünü.
Beləcə bitirir Sadə sözünü,
Bacılı qardaşın cah-calalı var!

İNDƏN BELƏ

Mürgüləyib yatan bəxti neylərəm,
Nəyimə lazımdı yar indən belə.
Ayaq getmir, baldır əsir, diz çökür,
Gözləyir yolumu gor indən belə.

Fələk mənə neçə dəfə tor qurub,
Dörd tərəfim yarğan olub, göl durub.
Bostanımı şaxta vurub, çor vurub,
Çətin görə billəm bar indən belə.

Qərq oldu sulara-sellərə Sadə,
Həsrət qaldı doğma ellərə Sadə.
Düşdü ağızlara-dillərə Sadə,
Ona neyləyər ki, zar indən belə!

AĞLAR

Dərddən ağlamayır təkcə insanlar,
Canlı da, cansız da yaş töküb ağlar.
Baharda buludlar kövrəlib çağlar,
Dərəyə-təpəyə yaşını tökər.

Kim eldən-obadan düşür aralı,
Olur ölənədək qəlbi yaralı.
Dolanma ortada qoçu misalı,
Sənin də gözünə qaranlıq çökər.

Çoxunu ağladır bil, qoca dünya,
Hey baxıb keçilən bu baca dünya.
Əl atmaz köməyə, əlaca dünya,
Sadənin ömrünü talayıb sökər.

SEÇ YAXŞIDAN YAMANI

Aşiq oldun, nə dərdə bax, nə qəmə,
Hərdən Məcnuna dön, hərdən Kərəmə,
Hərdən Qərib olub çat Şahsənəmə,
Eşq dərdinə dözməyənlər kaldı-kal.

Ara-axtar, seç yaxşıdan yamanı,
Yaxşılıqdı, bil yaşadan insanı.
Seç özünə mərd igidi, qananı,
Yar deməyən elə bil ki laldı-lal.

Güldən-gülə arı qonar bal üçün,
Acgöz əldən gedər cah-calal üçün.
Sadə candan keçər əhli-hal üçün,
Ağsaqqalın sözü ona baldı-bal!

SADƏYƏM, XATİRƏM QALSIN SÖYLƏDİM

Gəzdim qəm-hicranın neçə dağını,
Güldür indən belə qəm-otağını.
Allahım, sevindir mən dərdimәndi,
Açılsın boynumdan dərdin kəməndi.
Adın dilimdədir gecə-gündüz də,
Göstər kərəmini, qalmayım düzdə,
Selə-suya düşüb axdığım yetər,
Şadlığa uzaqdan baxdığım yetər.
Məndən əsirgəmə heç kərəmini,
Göstər sən Sadəyə sevinc dəmini.
Bir cənnət kimidi doğma Vətənim,
Aləmə bəllidi Borçalım mənim.
Aranlı-dağlıdı, gözəl məkandı,
Könül oxşayandı, bir gülüstandı.
Başkeçidsə olub dostum-hayanım,
Oradan başlayıb həyat dastanım!
Atadan-anadan aldım öyüdü,
Özüm böyüdükcə, dərd də böyüdü.
Bəxtim atlı oldu, mənsə piyada.
Heç ona çatmadım, düşdüm fəryada.

Başıma qar yağdı yayın günündə,
Kim durar zamanın zülmü önündə?
Fələk baxmadı ki, ah-amanıma,
Kədəri-ələmi qoşdu yanıma.
Düşdü qismətimə o qürbət ellər,
Axdı heç durmadı gözümdən sellər.
Bax belə deyibdi sözün ustadı,
Çiy südü əmibdi insan övladı.
Mən dərddən yandıqca sevinən oldu,
Atəş alovuma isinən oldu.
Barəmdə bihudə söhbət etdilər,
Boş yerə qınayıb, qeybət etdilər.
Diz çöküb yalvardım uca Mövlama,
Açmadım əlimi heç bir adama.
El-oba içində yetdim hörmətə,
Övladlarım üçün düşdüm zəhmətə.
Gecə-gündüzümü mən bir eylədim.
Dözdüm acılara, səbir eylədim.
Güldürdüm onları, özüm gülmədim,
Allaha bağladım ümidi hər dəm.
Qürbətdə artdıqca hey dərdim-qəmim,
Dünya nemətindən olmadı kəmim.
Qadalı başlara çəkdim sığalı,
Yığıb saxlamadım dövləti-malı.
Payımdan pay böldüm qohuma-yada,
Çatansa olmadı köməyə-dada.
Dərin düşüncəyə-xəyala daldım.
Gizlincə heyfimi gözümdən aldım.

Tanrım İlham verdi, dedim sözümü,
Haqqa-ədalətə dikdim gözümü.
Şeir həsr eylədim uca dağlara,
Barlı-bərəkətli bağça-bağlara.
Sadəyəm, xatirəm qalsın söylədim,
El məni yadına salsın, söylədim!

BALALARIMA NƏSİHƏT

Ömrüm tarixlərin qan yaddaşıdı,
Dərdi ilmə-ilmə toxudum, bala!
Sizin qəlbinizdən olub keçəni,
Nəmli gözünüzdən oxudum, bala.
Bu döyüş meydanı çox insanları,
Ələyib ələkdən keçirib bala.
Gözlərim görübdü nahaq qanları,
Dünya gözlərimdə kiçilib, bala!
Gecələr yol çəkib yorğun gözlərim,
Qəlbim cadar-cadar, ürəyim qırıq.
Üstümə dünyanın odu ələnib,
Hünərdi həyatda ayaqda qalmaq.
Boranlı, dumanlı günlər içində,
Axıb gözlərimdən odlu yağışlar.
Yeridim tufanlı, sellər içində,
Məni büdrətmədi atılan daşlar.
Çətin sınaqlarda qızıl anları,
Yaşadım ömrümü igid ər kimi,
Dayanıb ötürdüm çox karvanları,
Hünər meydanında cəngavər kimi!
Sizin qarşınıza ata tək çıxıb,
Sizinlə böyütdüm ümidlərimi,
Həsrəti, niskili bağrıma sıxıb,

Qəlbimdə dəf etdim öz dərdlərimi.
Gah sizə güvəndim, gah sözə hərdən,
Çətin anlarımda hər an var kimi.
Bir dərya çağladı düşüncələrdən,
Sahilə can atan dalğalar kimi.
Çınqıllı qayalar əzdi dizimi,
Dünyada yaxşılıq qalandı, bala.
Yadigar saxlayım ürək sözümü,
Bu dünya boşalıb dolandı, bala!
Ömrüm alovlardan-odlardan keçib,
Nəsli-nəsillərə bağlayır yolum.
Sizə ata oldum ana yerinə,
Mənim taleyimdən xəbərdar olun!

NƏSİHƏT

Gəlin hörmət edək ata-anaya,
Belə iş xoş gələr uca Mövlaya.
Sevgidən bir evdə yanarsa çıraq,
Qəm-qüssə o evdən qaçar çox uzaq.
Düzlüyə öyrətsən, əgər balanı,
Dönüb sənə deməz heç vaxt yalanı.
Yaxşı tərbiyə ver övladlarına,
Aldanma dünyanın dövlət-varına.
Oxuyub mükəmməl bilən Quranı,
İtirməz heç zaman dini-imanı.
Əli çalıb-çapsa, dil desə yalan,
Demək ki, o insan ilandı-ilan.
Kim hörmət edərsə bir ağsaqqala.
Ondan uzaq durar hər qada-bala
Çalışıb torpağa çox tökən təri.
Bolluca götürər barı-bəhəri,
Kimin ki, kamalı dərindi-dərin,
O, bilir sirrini göy ilə yerin.
Hansı igid el yolunda can qoyur,
Dar gündə, gen gündə el onu sayır,
Anlamayan öz xeyrini-şərini,
Düşünmə həyatda tapa yerini.
Əgər kim törətsə ahı-amanı,
Gələcək başına Nuhun tufanı.
Qadın hörmət ilə yanaşsa ərə,
O dərər barını gündə yüz kərə.

İncidib bezdirən ata-ananı,
Gün gələr ağlayar, qaralar qanı.
Kim ki, hey çalışar, sevər əməyi,
Tanrı qismət eylər halal çörəyi.
Kim könül sındırıb, yandırsa canı,
Tanrı bağışlamaz elə insanı.
Tamahın atını minən çox olar,
Çatmazlar mənzilə, hamsı yox olar,
Sadə tək düz olsa sözün-söhbətin,
Tanrı bol eyləyər hər an qismətin!

AĞLAMASIN

Yandırsa canını hicranın odu,
Boylanıb yollara, yar ağlamasın.
Günahkar gəzməsin, günahkar odur,
Eyləyib sirrimi car ağlamasın.

Bir dünya tapmışdım yar baxışından,
Sinəm dağ-dağ oldu dərd naxışından,
Çəkdiyim nalədən dağlar başından,
Əriyib, süzülüb qar ağlamasın.

Dönük çıxdı zalım öz ilqarına,
Dəyişdi sevgini dünya varına.
Baxmadı heç zaman ahu-zarıma,
Oldu el içində xar, ağlamasın.

Güldürdü üstümə sağı-solumu,
Cığıra döndərdi mənim yolumu.
Verdi yad əllərə tutub qolumu,
Utanıb eyləsin ar, ağlamasın!

Dondurdu insafsiz damarda qanı,
İnsan çiy süd əmib, etibar hanı,
Yanar qəbirdə də Sadənin canı,
Gen dünyam olubdu dar, ağlamasın!

HALAL EYLƏMİRƏM

Mənə dost olduğun söyləyən sənsən,
Məni haya basıb küyləyən sənsən.
Düşmən etmədiyin eyləyən sənsən,
Halal eyləmirəm sənə zəhmətim,
Daha qalmayıbdır sənə rəğbətim.

Olmusan qarğaya-quzğuna yoldaş,
Tülkütək hiyləndən açılmayır baş.
Axıtdın gözümdən leysan kimi yaş,
Halal eyləmirəm sənə zəhmətim,
Qəsd edib artırdın qəmim-möhnətim.

Ocaqlar söndürüb, ay evlər yıxan,
Niyə qorxmayırsan Haq tutar divan,
Sadəyəm, bu sözü söylərəm hər an,
Halal eyləmirəm sənə zəhmətim,
Qalsın qulağında ağır-töhmətim!

ALLAHIM İNSANI UZAQ EYLƏSİN

Canavar ağızlı, bayquş gözlüdən,
Şər-böhtan danışan yaman sözlüdən,
Səfil-sərgərdandan, sırtıq-üzlüdən,
Allahım insanı uzaq eyləsin.

Kinli-küdurətli, paxıl olandan,
Ürəyi nifrətlə tamam dolandan,
Yetimin malını zorla alandan,
Allahım insanı uzaq eyləsin.

Utanmaz-qızarmaz, səy-qafasızdan,
Qohum tanımayan bir vəfasızdan,
Böyüyü saymayan oğlandan-qızdan,
Allahım Sadəni uzaq eyləsin!

ÖYÜNMƏ

Öyünmə hər zaman “gözələm” deyə,
Gözəllər içində bir lələm deyə.
Dövrandan xəbərin yoxdu bəs niyə,
Fələk sənin kimi çox gül soldurub.

Gözəldən gözəlin yaradıb dünya,
Teli sığalladıb, daradıb dünya.
Sonra dava-dərman aradıb dünya,
Başlara döydürüb, saçı yoldurub.

Səringül bəhs etdi sənə çox sirdən,
Yükünü götürmə qınaq-təqsirdən.
Fələk sən təkinin minini birdən,
Ağladıb, gözünü yaşla doldurub.

DÜNYA

Dünya yoldu, biz o yolun yolçusu,
Axirətdi həmin yolun son ucu.

Dünya yatmış bir zəhərli ilandı,
Hara qaçdın, tapıb səni çalandı.

Dünya yatıb, haray salıb oyatma,
Uduzarsan, mərcə girib zər atma.

Dünya bazar, alış-veriş meydanı,
Tora salıb, müflis edir insanı.

Dünya böyük, dərin-dibsiz quyudu,
Bəlkə elə gördüyümüz yuxudu,

Dünya görmür axan nahaq qanları,
Qananların belə çıxır canları.

KÖNÜL EVİM

Könlümün evində bir dünya sığar,
Yoxdu zərrə orda yalana yeri.
Göydə ay-ulduza, günəşə dayaq,
Yerdə aşiqlərə peymanə yeri.

Güllü gülüstandı, Bağı-İrəmdi,
Qonağı ərənlər, nuri-didəmdi,
Gah çayır-çəməndi, gah yanan şəmdi,
Mənim ürəyimdi pərvanə yeri!

Büllur şüşə idi, bu könlüm, bəli,
Müşk-ənbər qoxardı bağçada gülü.
Ey Sadə, toxundu bir nadan əli,
Oldu dərdlilərə, qəmxanə yeri.

GÖYLƏRƏ UCALDI HEY AHIM-ÜNÜM

Əsdi acı yellər qəfil üstümə,
Ürəyimin bəndi-bağı üzüldü.
Yeridi üstümə qəmin qoşunu,
Səf-səf olub cərgələndi, düzüldü.

Elmiraya yanar qəbirdə canım,
Məmməd gözüm nuru, dinim-imanım.
Nəbi dərd sirdaşım, könül sultanım,
Yaşa döndü, qanım gözdən süzüldü.

Göylərə ucaldı hey ahım-ünüm,
Bükülübdü göy əskiyə xoş günüm.
Heyim yoxdu haray salıb mən dinim,
Sadə ömrü kələfləndi-çözüldü.

DÜNYA

Ay oğul, inanma kimlər söyləsə,
Yalandı, talandı, virandı dünya.
Eşq ilə yaranıb, eşqdən doğulub,
Sevgisini haqdan alandı dünya.

Fərq qoymaz kimsəyə, budu qaydası,
Pozulmaz növrağı, nə də sırası.
Bir körpüdü haq-nahaqqın arası,
Gələnləri yola salandı dünya!

Kədəri gecədi, gündüz sevinci,
Daşda gül bitirər, dəryada inci.
Dəliyə döndərər rahatı-dinci,
Qurdla qiyamətə qalandı dünya.

KƏDƏRİM MƏNİM

Minib cin atına dördnalla çapır,
Dönüb ildırıma başıma çaxır.
Baxmır ağa-boza, yandırıb yaxır,
Yağı cəllad olur kədərim mənim.

Acıqlı aslandı, inadlı dəvə,
Bənzəyir sifəti yeddibaş divə.
Sığışmır dünyaya, yerə, nə göyə,
Dolduqca hey dolur kədərim mənim.

Gahdan yelə dönür, gah da ki, selə,
Sadəni aparır belədən belə.
İndi əl uzadıb başımda telə,
Saçlarımı yolur kədərim mənim!

AĞLARAM

Qəfil tufan qopdu dədəm evində,
Yatdı, oyanmadı Nəbi yerində.
Qəmlərə qərq olduq qəmin selində,
Nalə çəkib, qardaş deyib ağlaram,
Qan-yaş töküb, bu sinəmi dağlaram.

Fələk yerdən-göyə eylədi zülüm,
Yandım, kömür oldu, ağzımda dilim.
Çırpındım, çatmadı bir yana əlim,
Nalə çəkib, qardaş deyib ağlaram,
Qan-yaş töküb, bu sinəmi dağlaram.

Bu nə qismət, bu nə yazı, qədərdi,
Günümüz ah-vaydı, qəmdi-kədərdi,
Biz gördük, görməsin kimsə bu dərdi,
Nalə çəkib, qardaş deyib ağlaram,
Qan-yaş töküb, bu sinəmi dağlaram.

Qılıncdan itiydi sözü Nəbinin,
Bilin, sərraf idi gözü Nəbinin,
Yanardı sönməzdi közü Nəbinin,
Nalə çəkib, qardaş deyib ağlaram,
Qan-yaş töküb, bu sinəmi dağlaram.

OLMASIN

Bu arzumu mən deyirəm, bilin siz,
Hər bir zaman yaylaqlara düşsün iz.
Yayda dağlar elsiz, dəyə binəsiz,
Gül bülbülsüz, bağ bağbansız olmasın.

Görünməsin aramızda biganə,
Aqillərə deyilməsin divanə.
Gündən-günə gözəlləşsin zəmanə,
İnsan oğlu din-imansız olmasın.

Yar-yarından ayrılmasın heç vədə,
Oğul-uşaq, nəvə görsün hər dədə.
Ey Allahım, aciz bəndən bu Sadə,
Yersiz-yurdsuz, adsız-sansız olmasın!

GƏRAYLILAR VƏ MÜXTƏLİF HECALI ŞEİRLƏR

CANIM BAŞKEÇİD

Dada yetənim,
Doğma Vətənim,
Gülüm-gülşənim,
Canım Başkeçid.

Daşın sirdaşım,
Qayan, qaş-daşım.
Suyun göz yaşım,
Canım Başkeçid.

Səndədir izim,
Ocağım-közüm,
Sənsən hər sözüm,
Canım Başkeçid.

Uzalı əlim,
Sən çağır gəlim.
Can istə verim,
Canım Başkeçid.

Arzumdu yolun,
Aç mənə qolun,
Sadədir qulun,
Canım Başkeçid!

DAĞLAR

Soruş sənə cavab verim,
Əzəlindən dağdı yerim,
Başkeçiddi ocaq-pirim,
Dağlardı qardaşım mənim.

Mən sevirəm güllərini,
Boz bulanlıq sellərini,
Dolanmışam ellərini,
Dağlardı sirdaşım mənim.

Qorxmaz oldum küləklərdən,
Mən don geydim çiçəklərdən,
Sadə doymaz diləklərdən,
Dağlardı, bil, başım mənim.

DAĞLAR

Dağdan deyim sizə yenə,
Vurulmuşam duman-çənə.
Kimsə lazım deyil mənə,
Dağlar arxa-köməyimdi.

Dağsız ömrüm keçər hədər,
Sevdiyim yox dağlar qədər.
Başkeçiddən verin xəbər,
Dağlar mənim ürəyimdi.

Yada düşdü qoca Şindi,
Səringülü duyan kimdi?
Uzaqdayam, neynim indi,
Dağlar arzu-istəyimdi.

HALAL OLSUN

Ey süd əmmiş, gözəl-göyçək,
Heç solmayan tər bir çiçək.
Gül camallı, təmiz ürək ,
Qız-gəlinə halal olsun!

Doğru sözlü, düz ilqarlı,
Abır-həya, namus-arlı,
Sədaqətli, etibarlı
Qız-gəlinə halal olsun.

Mərifətli, qanacaqlı,
Qohumcanlı, od-ocaqlı,
Köklü, soylu, xoş soraqlı
Qız-gəlinə halal olsun.

Qocaların könlün alan,
Körpələri yada salan,
Hal soruşan, qeydə qalan
Qız-gəlinə halal olsun.

Gecə-gündüz Allah deyən,
Ədəb-ərkan, yol gözləyən,
Səringülü əzizləyən
Qız-gəlinə halal olsun.

BİZİM DAĞLAR

Unutmaram sellərini,
Ağır-ağır ellərini,
Tutub dostun əllərini,
Bizim dağlar, bizim dağlar.

Qonaq-qara, mehmanlıdı,
Bəzən çənli-dumanlıdı,
Şamdüyəli, Sərxanlıdı,
Bizim dağlar, bizim dağlar.

Mənsiz qalıb qəm eləyir,
Gözlərindən od ələyir.
Sadə deyib, yol gözləyir,
Bizim dağlar, bizim dağlar.

MƏNİ DAĞLARA YETİRİN

Yuxumda dağı görmüşəm,
O keçən çağı görmüşəm.
Buzlu bulağı görmüşəm,
Məni dağlara yetirin!

Düşmüşəm dağdan aralı,
Olmuşam qəlbi yaralı.
Dağsız bənizim saralı,
Məni dağlara yetirin!

Bildim özümü dağlarda,
Dedim sözümü dağlarda,
Tapdım dözümü dağlarda,
Məni dağlara yetirin!

VER

Qismətimi a Tanrı,
Təpələmə-silə ver,
Dərdi-qəmi al candan,
Qoy axıtsın, selə ver.

Ələ saçına şehi,
Durulsun yarın kefi,
Əsəndə səhər mehi,
Sığal çəksin telə ver.

Uzaq eylə yamandan,
Şər-böhtandan, yalandan.
Olma könül qırandan,
Kəraməti dilə ver.

Gəl möhürlə fərmanı,
Oda yandırma canı.
Qurtar darda qalanı,
Bu müjdəni elə ver.

Sadə deyər Vətənim,
Dərdi minə yetənim.
Qarabağ olsun mənim,
Canı Göyçə gölə ver.

İNCİTMƏYİN ANALARI

Bir kəlməsi şah fərmanı,
Sığalıdı can dərmanı,
Bəxş eyləyib bizə canı,
İncitməyin anaları!

Hər gün qaralar qanımız,
Vallah, sağ keçməz canımız
Düşmən olar dörd yanımız,
İncitməyin anaları!

Göydə buludlar çaxnaşar,
Yerdə bulaqlar ağlaşar.
Gecə-gündüzə qarışar,
İncitməyin anaları!

Ömrü qışdı, yazdı-yaydı,
Anam görən ahdı-vaydı.
Bürc-hasardı, bir saraydı,
İncitməyin anaları!

Ah çəkəndə zülmət çökər,
Göz yaşını bulud tökər.
Onsuz Sadə xiffət çəkər,
İncitməyin anaları!

YAXŞI İNSAN DEDİYİN

Haqsızlığa dözməyir,
Boş-bihudə gəzməyir,
Çalışmaqdan bezməyir,
Yaxşı insan dediyin.

Sevir Qadir Allahı,
Doğru-düzgün, ən safı,
Yaxın qoymur tamahı,
Yaxşı insan dediyin.

Hörmət-izzət saxlayır,
Qohum-qardaş yoxlayır.
Körpələri oxşayır,
Yaxşı insan dediyin.

Bağlı olur millətə,
Qanun-qayda, adətə,
Meyl edər ibadətə,
Yaxşı insan dediyin.

Səringülü yad edir,
Qəm-qüssəni bad edir,
Könülləri şad edir,
Yaxşı insan dediyin.

MƏNİM

Ulu Tanrım əlac eylə,
Günüm ahu-vaydı mənim.
Əriyirəm şamlar kimi,
Ömrüm qəmə paydı mənim.

Fələk salıb nəzərindən,
Qəm almışam öz əlindən,
Yıxıb canı təməlindən,
Gözüm yaşı çaydı mənim.

Bostan əkdim, talan oldu,
Çoxu əqrəb-ilan oldu,
Düz dediyim yalan oldu,
Bəxt-qismətim zaydı mənim.

Yaman ağır olub daşım,
Qovğadan açılmır başım.
Bilinməyir yazım, qışım,
Qədd-qamətim yaydı mənim.

Yazı yazan yazıb belə,
Zülm eyləyib Səringülə.
Köç edirəm eldən-elə,
Bircə günüm aydı mənim.

MƏNİ

Yandı canım a bimürvət,
Lal oturma, danış, söylət.
Öldürəcək məni həsrət,
Salma haldan-hala məni.

Sevəntək sinə gərmədim,
Bircə çiçəksə dərmədim.
Gözlədim, könül vermədim,
Unutdun az qala məni.

Sən Sadənin ürəyisən,
Hər arzusu-diləyisən,
Dar günündə gərəyisən,
Salma yoldan-yola məni.

DÜNYANIN

Arif olanlar, söyləyin,
Varmı səfası dünyanın?
Öldürüb məni qurtarsın,
Kəssin davası dünyanın.

Başıma qarı yağdırır,
Budur havası dünyanın.
Təkcə mənəmi qalıbdı,
Cövrü-cəfası dünyanın.

Səringül Sadə anlayıb,
Yoxdu şəfası dünyanın.
Anama nələr çəkdirib,
Çəksin anası dünyanın!

MƏNƏM

Aşıq mənəm, ozan mənəm,
Dərdi-səri yazan mənəm.
Fələk çalan havalara,
Sındıran mən, süzən mənəm.

Xeyri-şəri qanan mənəm,
Oda-közə yanan mənəm.
Dağda-daşda gül axtarma,
Baxçada gül-reyhan mənəm.

Eşqin cənnət bağı mənəm,
Bostanında tağı mənəm,
Eşqlə dolu könüllərin,
Aranı-yaylağı mənəm.

Eşqin bahar çağı mənəm,
Fidanı, yarpağı mənəm.
Meylə dolu piyalənin,
Yoğrulmuş torpağı mənəm.

Səringüləm düzən mənəm,
Diyar-diyar gəzən mənəm.
Qürbətin od-alovuna,
Tab gətirib, dözən mənəm.

DEMİŞƏM

Mən sənə göyçək demişəm,
Yalan yox, gerçək demişəm.
Doldur eşqin badəsini,
Gəl birgə içək demişəm.

Mən sənə gülüm demişəm
Ağzımda dilim demişəm.
Uyub əğyarın sözünə,
Eyləmə zülm demişəm.

Mən sənə sazım demişəm,
Baharım-yazım demişəm,
Sən çıxanda qismətimə,
Tanrıdan yazım demişəm.

Mən sənə dağım demişəm,
Meyvəli bağım demişəm.
Göydə günəş, ulduz-ayım,
Evdə çırağım demişəm.

Mən sənə canım demişəm,
Sadəyəm, qanım demişəm.
Pərvanətək mən oduna,
Həmişə yanım demişəm.

YIXILANA GÜLMƏ

Ey meydanda at oynadan,
Özünü baş sayan nadan,
Yıxılana gülmə, utan,
Bir gün sən də yıxılarsan.

Öyünmə bəxt-qismətinlə,
Nə də ki, var-dövlətinlə,
Zaman gələr, məni dinlə,
Yoxsul olub sıxılarsan.

Əmələin şər, özün şərsən,
Sadə deməz sən bəşərsən.
Dərdə-qəmə yetişərsən,
Tamahında boğularsan.

DƏRDİN ALIM!

Gecə-gündüz işim mənim,
Ah-məlaldı, dərdin alım.
Əzəlindən fani dünya,
Qalmaqaldı, dərdin alım.

Ömür dağdı, dumanı var,
Şaxta, qarı, tufanı var.
Azıb yolda qalanı var,
Çoxu kaldı, dərdin alım.

Yada salaq keçənləri,
Kam almadan köçənləri.
Sağlıq deyib içənləri,
İndi laldı, dərdin alım.

Çox özündən deyənləri,
Düzəlmiş iş əyənləri.
Fələk müftə yeyənləri,
Gözdən saldı, dərdin alım.

Dünya yalan, boş xəyaldı,
Yığılan şey burda qaldı.
Sadənin də yarı vardı,
Torpaq aldı, dərdin alım!

TANRIM ÖZÜ SAXLASIN

Balam, səni yamandan,
Nadürüstdən, nadandan.
Fitnə-fəsad, yalandan,
Tanrım özü saxlasın!

Pis gözlərdən-nəzərdən,
Qəm-qüssədən, qəhərdən,
Qanqaraldan xəbərdən,
Tanrım özü saxlasın!

Sadə deyir, nifrətdən,
Paxıllıqdan, qeybətdən.
Xəstəlikdən – hər dərddən,
Tanrım özü saxlasın!

BACAR GÜNAH EYLƏMƏ

Bu bəllidi aləmə,
Kim səbəbdi dərd-qəmə.
Tapacaq bir sədəmə,
Bacar günah eyləmə.

Yalan demək pis işdi,
Dözülməyən vərdişdi.
Sonu acı gülüşdü,
Heç vaxt yalan söyləmə.

Yoxla çətin-asanı,
Alma ələ əsanı.
Düz yol gedən insanı,
Heç vaxt yoldan eyləmə.

DESİNLƏR

Öyünmə göz-qaşınla,
Nə də ki qaş-daşınla.
Sən fəxr eylə başınla,
Şöhrət-şanım desinlər.

Düşsən belə odlara,
Ağız açma yadlara.
Abır-həya, ad ara,
Xan-sultanım desinlər.

Sadə kimi sən düz ol,
Gecə olma, gündüz ol.
Qəlbi təmiz, xoş üz ol,
Mehribanım desinlər.

PAXILLIQ

Bu paxıllıq bir bəladı,
Çoxu ona mübtəladı,
Bir quyudu, bir çaladı,
Ora düşüb, çıxmaq çətin.

Paxıllığın vardı şəri,
Ürək əzir qəm-qəhəri,
O Adəmdən üzü bəri,
Açarıdı dərd-möhnətin.

Sadə sözü nəsihətdi,
Aqillərə gül-dəmətdi.
Paxıllıq bil, qəbahətdi,
Övladıdı o qeybətin.

YOX QANACAQ-MƏRİFƏTİN

Yox qanacaq-mərifətin,
Səndən arvad olar çətin.
Yox kimsəyə bir hörmətin,
Harda olsan, qəlb qırırsan.

Susmayırsan toy-nişanda,
İnsan olmaz bu lisanda.
Sakit bir yer qalmır canda,
Silkələnib sındırırsan.

Deyən dəvən çıxıb düzə,
Nə qalmadı, çəkdin üzə.
Üz çevirdin daha bizə,
Yavaş-yavaş qudurursan.

Tərgitmisən utanmağı,
Qohum-qardaş, yar anmağı,
Bilmirsən dinc dayanmağı,
Qaş-göz atıb, göz vurursan.

Sadə verir məsləhəti,
Yaxşı dolan, tökmə əti.
Hamı bilir həqiqəti,
Ona-buna tor qurursan.

EYLƏ

Sən də bənzə yaxşılara,
Üzləri heç etmə qara.
Evdə olsan, getsən hara,
Çalış, durma, qeyrət eylə.

Bərabər tut öz qızına,
Hərdən baş çək baldızına,
Qane ol çox, həm azına,
Şükranlığa adət eylə.

Qaynın varsa, qardaşın say,
Səfehlərə gəl olma tay.
Öz payından ver ona pay,
Hal soruşub, söhbət eylə.

Gün keçirmə yata-yata,
Qayınana, qayınata.
Olsun sənə ana-ata,
Onlar ilə ülfət eylə.

Sadə sözü cana dəyən,
Ər ağzına vermə yüyən.
Qulluq edib, sevib-bəyən,
Ona daim hörmət eylə!

QƏM OLUBDU BƏZƏYİMİZ

Heç açılmır ürəyimiz,
Bitmir arzu-diləyimiz.
Qəm olubdu bəzəyimiz,
Süslənirik başdan-başa.

Çox ağırdı yükü duzdan,
Aralanmır oğul-qızdan.
Yapışıbdı yaxamızdan,
Bizi salır dağa-daşa.

İnsafı yox, imanı yox,
Onun dava-dərmanı yox.
Səringülü incidir çox,
Baxmır gözdən axan yaşa.

ÇALIB-ÇAPAN DÜNYASIDI

Doğruluqda işi yoxdur,
Oğurluğa meyli çoxdur.
Dili zəhər, sözü oxdur,
Çalıb-çapan dünyasıdı.

Qan ağlayır zəhmət çəkən,
Fələk olub beli bükən,
Sevinməyir tərin tökən,
Əldən qapan dünyasıdı.

Sadə qəlbi olub talan,
Yaltaqlardı meydan alan.
Yamanlardı yadda qalan,
Yoldan sapan dünyasıdı!

YAXŞILIQDI YADDA QALAN

Gəl unutma, arif olan,
Əzəlindən dünya yalan.
Yaxşılıqdı yadda qalan,
Sən bacarıb bir üz güldür.

Tanrımızı hey yada sal,
Ata-ana qeydinə qal.
Körpələrin könlünü al,
Böyüklərə hörmət bildir.

Vətəni sev, gəl qeyrətə,
Çalış, qatlan hər zəhmətə.
Meyil salma var-dövlətə,
Sadə kimi nəfsi öldür.

BU DÜNYANI ZİNDAN SANDIM

Yaşamadım, mən süründüm,
Dərd geyindim, qəm büründüm.
Öz elimdə az göründüm,
Qürbət eli çox dolandım.

Neçə illər qaldım qərib,
Tapılmadı dərdə təbib.
Uzaq düşdü tanış, həbib,
Vətən deyib, Vətən andım.

Azalmadı möhnət-ələm,
Aldım ələ dəftər-qələm.
Qoymadı ki, kədər güləm,
Suda axdım, odda yandım.

Saçımda iz qoydu illər,
Hər yediyim oldu zəhər.
Eşitmədim bir xoş xəbər,
Bu dünyanı zindan sandım.

Mən Sadədə can qalmadı,
Dodağımda qan qalmadı.
Kimsə gəlib hal sormadı,
Neçə yerdən paralandım.

DÖZƏMMİRƏM

Öyrənmişəm dərd çəkməyə,
Alışmışam qəm əkməyə.
Fələk məni bilməm niyə
Gözdən salıb, dözəmmirəm.

Bir soraq yox ədalətdən,
Cana gəldim söz-söhbətdən.
Arzularım hər cəhətdən
Nakam qalıb, dözəmmirəm.

Sinəm olub qəm məskəni,
Çəkilməyir duman-çəni,
Səringüləm, sanki məni
İlan çalıb, dözəmmirəm.

YARDAN AYRILAN...

İtirər səbri-qərarını,
Tapammaz, yardan ayrılan.
İlan vuran yatsa belə,
Yatammaz yardan ayrılan.

Salan olmaz heç yadına
Kimsə yetməz imdadına.
Arzusuna-muradına,
Çatammaz yardan ayrılan.

Ərşə qalxar ahı-ünü,
İlə dönər bircə günü,
Sadə kimi qəm yükünü,
Atammaz yardan ayrılan.

İNANIN MƏNƏ!

Dünya sirlə doludu,
Dünya Haqqın yoludu,
Dünya Tanrı quludu,
Dedim, inanın mənə.

Uydum şirin dilinə,
Düşdüm qəmin selinə.
Zəhəri bal yerinə,
Yedim, inanın mənə!

Baxmadım heç yaşına,
Torpağına, daşına.
Çox dolanıb başına,
Söydüm, inanın mənə!

Goru gördüm gözümlə,
İməklədim dizimlə.
Düşmənliyin bizimlə,
Duydum, inanın mənə!

Mən Sadəyəm, bağrı qan,
Bunu bilsin hər insan,
Fani, yalan dünyadan,
Doydum, inanın mənə!

QOHUM VAR Kİ...

Qohum var ki, yan gedir,
Bizi atıb, tərk edir.
Görəmmirəm bir tədbir,
Ağlım-huşum qarışır.

Qohum var ki, yad kimi,
Eyləyirlər him-cimi.
Qırmaq üçün qəlbimi,
Hər birisi yarışır.

Sadə bilir səbəbi,
Daha yox bal, ləbləbi.
Unudurlar o Rəbbi,
Hərə bir söz danışır.

DE...

Öyərsən-çaşar,
Həddini aşar.
Qoyma, qazan tək,
Qaynayıb-daşar.

Dünyaya puç de,
Mal-mülkə heç de.
Haqqı-nahaqdan,
Arala, seç de!

Danış Qurandan,
Dindən-imandan,
Sadətək anlat,
Yaxşı insandan!

AY CİJİ, BİR İMDAD EYLƏ

Günümüzü edib qara,
Dirəyibdir qız divara.
Şirə dönüb günüqara,
Ay ciji, bir imdad eylə.

Quduz dəyib, cin vurubdu,
Baş yarıbdı, qol qırıbdı.
Neçə köynək, don cırıbdı,
Ay ciji, bir imdad eylə.

Verək getsin itə-qurda,
Görünməsin bir də burda.
Sadə qalıb vurhavurda,
Ay ciji, bir imdad eylə.

OYNAYIR

Bir nəzər sal bəxtəvərə,
Telində güllər oynayır.
Mənim qarnım qan ağlayır,
Əlində pullar oynayır.

Bürünübdü al-qumaşa,
Bəzənibdi başdan-başa.
Eyləyəndə mən tamaşa,
Sinəmdə millər oynayır.

Hər yanından ət sallanır,
Yanaq qızarıb, allanır.
Dövrə vurub hey hallanır,
Boynunda hillər oynayır.

Saçlarına taxıb daraq,
Hamı ona edir maraq.
Ona tərəf uzanaraq,
Sağ-solda əllər oynayır.

Gəl dinc saxla dili, Sadə,
Zaman sənə zəli, Sadə,
Sən qaldırma əli, Sadə,
Başında küllər oynayır!

BU QIZ

Bu qız aydan arıdı,
Dağların ağ qarıdı.
Bağ-bağçanın barıdı,
Xəbəri yox, heç kimin.

Bu qız kəklik, turacdı,
Saçı qulac-qulacdı,
Qönçələnib gül açdı,
Xəbəri yox heç kimin.

Bu qız qara gözlüdü,
Şirin-şəkər sözlüdü.
Gözəldi, ay üzlüdü,
Xəbəri yox heç kimin.

Bu qız ceyran, maraldı,
Kim doğubsa halaldı,
"Ağzı var, dili laldı"
Xəbəri yox heç kimin.

Bu qız güldü – çiçəkdi,
Sadə sözü gerçəkdi.
Xoş arzudu, diləkdi,
Xəbəri yox heç kimin.

DAHA MƏNDƏN GEN DOLANIR

Payımdan da pay verdiyim,
Çağıranda hay verdiyim,
Gündə beş yol çay verdiyim,
Daha məndən gen dolanır.

Qoruduğum dərd-bəladan,
Seçmədiyim heç baladan.
Çıxarıbdı məni yaddan,
Mürgü vurub xumarlanır.

Ağrıyanda can dediyim,
Xanım-xatın, xan dediyim.
Soruşmur bir, vardı nəyim,
Sığal çəkib, tumarlanır.

Hər gün gəzər çəmənzarım,
Demir bəlkə var azarım,
Qışım gəlib, yağır qarım,
Yeyib-içib hamarlanır.

Doğruların mən qurbanı,
Yalançının çıxsın canı,
Görəndə ki, boşdu canı,
Sadə qəlbi qubarlanır.

DÜNYAMIZ

Yalandan da yalandı,
Canı çəkib alandı,
Qiyamətə qalandı,
Mərdimazar dünyamız.

Qarı yağır yayda da,
Yanan olur çayda da,
Dolanır bu qaydada,
Verir azar dünyamız.

Yox eyləyir bir əldən,
Göz açılmır əcəldən.
Olubdu lap əzəldən,
Qəbir-məzar dünyamız.

Hey qaraldır qanları,
İtirir ad-sanları,
Alıb-satır canları,
Sanki bazar dünyamız.

Qəmdən verib badəni,
Çaşdırıb vaxt-radəni,
Siz də bilin Sadəni,
Eyləyib zar dünyamız.

GƏLİB ÇIXMADIN

Gözüm yollarda qaldı,
Qolum qollarda qaldı.
Sənsə gəlib çıxmadın,
Sözün harada qaldı?

Qış ötüb, gəldi bahar,
Döndü yuvaya quşlar.
Yar sənin əvəzinə,
Məni tapdı intiazar.

Deyən zamana döndü,
Qəddim kamana döndü,
Sənsizlikdən Sadənin,
Ciyəri qana döndü.

ÜMİDLƏRİM SƏNDƏDİR

Günüm-ayım, ilimi,
Çiçəyimi, gülümü.
Sənə bəxşiş eyləyib,
Mən görmüşəm zülümü.

Çalışmışam güləsən,
Düzlük nədir biləsən,
İstəmişəm igidlər
Cərgəsinə gələsən.

Sadə saf bir bəndədir,
Etibarda öndədir.
Sən arzumu çin eylə,
Ümidlərim səndədir.

DEDİM

Həsrətinə dözəmmədim,
Açdım dərdim çaya dedim.
Gündüzlər günə söylədim,
Gecə xəlvət aya dedim.

Mən qalmışam boran-qarda,
Yar qoyarmı yarı darda,
Gülüm solub ilk baharda.
Yetiş dada-haya dedim.

Çək gözümü cığır-yoldan,
Qurtar məni qeylü-qaldan.
Sadə bezib dərd-məlaldan,
Gəl olma daş-qaya dedim.

OLAR

Günahı var hər bəndənin,
Hər bir ömür eyləyənin,
Allah, Allah söyləyənin,
Bir gün Kəbə yolu olar.

Ədəb-ərkan, yol bilənin,
Haram yox, halal yeyənin,
Sözünü doğru deyənin,
Bəxt-qisməti dolu olar.

Yatızdıran qalmaqalı,
Eldən bərəkallah alı.
Kimdi ağsaqqal misalı,
Sadə onun qulu olar.

SARI YARĞAN, SARI BULAQ

Vətən dərdi var başımda,
Dayanmayır göz yaşım da,
Qalıb mənim yaddaşımda,
Sarı yarğan, Sarı bulaq.

Özünə hey məni çəkib,
Ürəyimdə güllər əkib,
Xəyalımla olub həbib,
Sarı yarğan, Sarı bulaq.

Önümdə yandırıb şamı,
Bəzəyibdi bu dünyamı,
Sadəyə verib ilhamı,
Sarı yarğan, Sarı bulaq.

SƏHƏR-AXŞAM

Qaranlıqda çıraq olam,
Sevinc verib, qəmi qovam.
Səhralarda bulaq olam,
Düşünürəm səhər-axşam.

Məhəbbəti bir coşqun çay,
Səxavəti Hatəmə tay,
Hamılara çıxaydım pay,
Düşünürəm səhər-axşam.

Dolğun-geniş çay olaydım,
Kür-Araza tay olaydım,
Ya da körpü, yol salaydım,
Düşünürəm səhər-axşam.

Dağdan əsən yel olaydım,
Yaşıl çəmən, çöl olaydım.
Böyük dəniz, göl olaydım,
Düşünürəm səhər-axşam.

Açaydım mən bir gül kimi,
Oxuyaydım bülbül kimi,
Dən verəydim sünbül kimi,
Düşünürəm səhər-axşam.

Qürbət qəmi sinə dəldi,
Yurdun daşı gövhər-ləldi.
Vətən hər şeydən əzəldi,
Düşünürəm səhər-axşam.

Dərə-təpə, düz ol Sadə,
Əllini keç, yüz ol Sadə,
Ocaqlara köz ol, Sadə,
Düşünürəm səhər-axşam.

DÜNYA

Əldən alar dövlət-varı,
Olmaz onun etibarı,
Bəzən eylər ömrü yarı,
Başdan-başa yalan dünya.

Yola salar gələnləri,
İgidləri, ərənləri,
Gözüylə od görənləri,
Qəm-kədəri kalan dünya.

Sanki dəli-divanəyəm,
İşlərinə biganəyəm.
Əl uzadam, nə karəyəm,
Mən də oldum nalan dünya.

Vurar başı daşdan-daşa,
Ömrü salar yazdan-qışa,
Eyləyərsən ondan haşa,
Deyərsən ay ilan dünya.

Gəl söndürmə eşq közünü,
Yaxşı tanıt sən özünü,
Sadə desin qoy sözünü,
Ey boşalıb-dolan dünya.

DAĞLAR

Qara gəldi qışın-yazın,
Nələr çəkdi sənin başın.
Qan ağladı torpaq-daşın,
Yad əllərdə qalan dağlar,
Məni dərdə salan dağlar!

Quru qaldı biçənəyin,
Açılmadı gül-çiçəyin.
Daha uçmur kəpənəyin,
Yad əllərdə qalan dağlar,
Eylərəm ah-nalan, dağlar!

Gözəl-göyçək çağın hanı,
Başında yığnağın hanı,
Sadə tək qonağın hanı,
Yad əllərdə qalan dağlar,
Könlüm evi talan, dağlar!

QÜRBƏT ELDƏ KEÇƏN ÖMÜR

Tufan qopmuş yaza bənzər,
Teli sınmış saza bənzər,
Can yandıran közə bənzər,
Qürbət eldə keçən ömür.

Bənzər kömür, bənzər külə,
Dərdi gələr gülə-gülə.
Şamtək yanar gilə-gilə,
Qürbət eldə keçən ömür.

Elsiz qalmış dağ kimidir,
Dolu döymüş bağ kimidir,
Sadənin qəlbini didir,
Qürbət eldə keçən ömür.

AGAH OLSUN DOSTUM-YARIM

Agah olsun dostum-yarım,
İtib-getmir dərd-azarım.
Tək yanmaqdır qazanc-karım,
Mən yanmaqdan kül-kömürəm.

Bağlamışam qəmdən şələ,
Əlim çatmır yurda-elə.
Düşünürlər yəqin belə,
Mən insan yox, daş-dəmirəm.

Səringüləm, dərdim dərya,
Baş götürüb gedim hara?
Ayrılıq düşüb arıya,
Başdan-başa tək səbirəm.

O GÖZƏLİN

Min tərif söyləsəm azdı,
Şux qamətli sərvinazdı.
Xoş sözlüdü, xoş avazdı,
Vurğunuyam o gözəlin.

Qış görməyib, ömrü yazdı,
Bizim üçün bir murazdı.
Onun adı telli sazdı,
Vurğunuyam o gözəlin.

"Ruhani"si ruh oynadır,
"Cəngi"si cəngi andırır,
"Zarıncı"sı can yandırır,
Vurğunuyam o gözəlin.

Çox sevirəm "Mirzəcanı",
"Müxəmməs" tək hava hanı?
"Sarıtel" i can dərmanı,
Vurğunuyam o gözəlin.

Türkün olub dost-sirdaşı,
Şah İsmayıl qan qardaşı.
Koroğlunun yol yoldaşı,
Vurğunuyam o gözəlin.

Onun yeri sinələrdi,
Bir də uca zirvələrdi.
Qəlbimizdən silər dərdi,
Vurğunuyam o gözəlin.

Sadə sevər "zil"də, "bəm"də,
Unutmayır bu aləmdə.
Heç vaxt qoymaz onu qəmdə,
Vurğunuyam o gözəlin.

GƏLDİM

Qəvvas olub qəm gölündə,
Yarəb, üzməyəmi gəldim?
Açılmaz dərd kələfini,
Söylə, çözməyəmi gəldim?

Mən vurmuşam qəmdən şələ,
Dərdim Kərəm, mən də Lələ.
Selə düşdüm, batdım lilə,
Candan bezməyəmi gəldim?

Bir bağ saldım dərdi-sərdən,
Qulluq etdim canı-dildən.
Dolu döymüş solan güldən,
Saça düzməyəmi gəldim?

Bir dağ oldum boran-qarlı,
Bağban oldum dərddən barlı.
Qismət gördüm ahu-zarlı,
Canım üzməyəmi gəldim?

Fələk mənə zor eylədi,
Bu dünyanı gor eylədi,
Yorğanımı qor eylədi,
Oda dözməyəmi gəldim?

Qismət oldu qürbət ellər,
Gözlərimdən axdı sellər.
Qoy ağlasın məni ellər,
Qəlbi üzməyəmi gəldim?

Qəm zəmidi, Sadə biçir,
Sıralayıb bir-bir seçir.
Ürəyimdən bunlar keçir,
Dərdlə gəzməyimi gəldim?

QƏRİBİN

Yükü ağır-duza bənzər,
Yayı qara buza bənzər.
Qəlbi qırıq saza bənzər,
Qürbətdə qalan qəribin.

Gözü qalar hər an yolda,
Kimsə gəlməz, qalsa darda.
Ömrü keçər vurhavurda,
Qürbətdə qalan qəribin.

Məcnuntək gəzər çölləri,
Açılmaz qönçə gülləri,
Lala dönər bülbülləri,
Qürbətdə qalan qəribin.

Ay-ulduz olar sirdaşı,
Xatırlayar dağı-daşı,
Qurumaz gözünün yaşı,
Qürbətdə qalan qəribin.

Gecəsi yox, gündüzü yox,
Sadə kimi şən üzü yox.
Könül açan yol-izi yox,
Qürbətdə qalan qəribin!

BU DÜNYANIN

İnamı var, imanı var,
Yaxşısı var, yamanı var,
Doğrusu var, yalanı var,
Bu dünyanın, bu dünyanın.

Rəncbəri var, ağası var,
Toy-nişanı, qəm-yası var.
Qalmaqalı, qovğası var,
Bu dünyanın, bu dünyanın.

Hərəyə bir köynək biçir,
Nə fərq qoyur, nə də seçir.
Körpüsündən hamı keçir,
Bu dünyanın, bu dünyanın.

Həm aqildi, kərəmi var,
Bəxti yazan qələmi var,
Müjdəsi var, ələmi var,
Bu dünyanın, bu dünyanın.

Sadə görüb hər üzünü,
Eşidibdi yüz sözünü.
Fitnə-yalan, düz sözünü,
Bu dünyanın, bu dünyanın.

ÖLDÜM ALLAH, DƏRD ƏLİNDƏN!

Yenə qəmə qərq olmuşam,
Qara bulud tək dolmuşam,
Daha bezib yorulmuşam,
Öldüm Allah, dərd əlindən!

İlə dönüb günüm-ayım,
Qəm-kədərdi Tanrı payım,
Quruyubdu ümid çayım,
Öldüm Allah, dərd əlindən!

Var-dövlətdə yoxdu gözüm,
Qalmyıbdı məndə dözüm,
Dərdlərimə yoxdu çözüm,
Öldüm Allah, dərd əlindən!

Lazım gəlsə qul olaram,
Öz xalqıma yol olaram.
Lap daş-torpaq, kol olaram,
Öldüm Allah, dərd əlindən!

Qəm evində çıraq Sadə,
Ellər yatar, oyaq Sadə.
Kim neyləsə, qınaq Sadə,
Öldüm Allah, dərd əlindən!
Yıxılmışam təməlimdən!

GÖZƏLDƏ HÖRMƏT GƏRƏK

Dilbərsə əgər qadın,
Bax ona rəğbət gərək.
Nadansa, çəkmə adın,
Nə lazım minnət gərək.

Təkdirsə bu cahanda,
Qalırsa eşqi canda,
Bunlardan artıq onda,
Doğru söz-söhbət gərək!

Gülüsə ilk baharın,
Çalırsa könül tarın,
Dəyəri yox onların,
Gözəldə ülfət gərək!

Olsa da laləyanaq,
Gülüzlü, qönçə dodaq,
Olsa da büllur buxaq,
Gözəldə hörmət gərək!

Sadənin var zəfəri,
Sözüdü dil əzbəri,
Gözəldə alın təri,
Ar-namus, qeyrət gərək!

ULU TANRIM

Adın düşmür dilimdən,
Qurtar məni zülümdən,
Tutub mənim əlimdən,
Tanrım, göstər doğru yol.

Həm atasan, həm ana,
Sənlə birgə olana.
Dərd əhlinə-nalana,
Ehsanını eylə bol.

Biz bələdik rəhminə,
Dağlar qədər zəhminə.
Tabe olur hökmünə,
Canlı-cansız, ağac, kol.

Hamı sənə baş əyir,
Kimi səcdə eyləyir,
Kimi mədəd diləyir,
Dərgahına açıb qol.

Sadə yaman gündədir,
Nadan ondan öndədir.
Tək ümidi səndədir,
Ulu Tanrım, kömək ol!

SƏN XƏBƏR AL

Geniş dünyam olubdu dar,
Gəl sən mənim qeydimə qal.
Anam, sənə qurban olum,
Niyəsini sən xəbər al.

Görmürəm dağın selini,
Dərmirəm bağın gülünü,
Öyrən fələyin felini,
Niyəsini sən xəbər al.

Nə tapdımsa, tək yemədim,
İncidib qəlbə dəymədim,
Sənin-mənimdi demədim,
Niyəsini sən xəbər al.

Mənim qəlbim güldən incə,
Qalan ömrüm teldən incə,
Bəxtim yatır niyə səncə,
Niyəsini sən xəbər al.

Sadə acıdil olmadı,
Bir kəsici əl olmadı.
Bu dünyadan kam almadı,
Niyəsini sən xəbər al.

OLUR

Ətri qalmaz solan gülün,
Səsi qəmli tək bülbülün.
Qürbət eldə keçən günün,
Sevinci də yalan olur.

Orda aləm bulaşıqdı,
Gördüyün boş yaraşıqdı.
Kədər qəmlə sarmaşıqdı,
Qürbət canı alan olur.

Huşun gedir, ağlın çaşır,
Ruhun bacalar dolaşır,
Gecələr bayquş ulaşır,
Qürbətdə üz solan olur.

Olursan qardaş möhtacı,
İstəyirsən ana-bacı.
Ağlayırsan acı-acı,
Qürbətdə can nalan olur.

Sadə, qürbət viran olsun,
Tər gülləri tezcə solsun.
Yuxu kimi bir an olsun,
Orda ömür talan olur!

BİZİM KÖNÜL KÖŞKÜMÜZÜN

Öz cığırı, öz izi var,
Bizim Könül Köşkümüzün.
Deyilməmiş yüz sözü var,
Bizim Könül Köşkümüzün.

Hələ qönçə, təzə-tərdi,
Kişiləri igid-ərdi,
Xanımları ləl-gövhərdi,
Bizim Könül Köşkümüzün.

Nə bəndi, nə bərəsi var,
Sazdan-sözdən şələsi var,
Kərəmi var, Ləläsi var,
Bizim Könül Köşkümüzün.

Aida xanım görən gözü,
Sevir haqqı, doğru-düzü,
Odur ocağının közü,
Bizim Könül Köşkümüzün.

Gürcüstanla, Azərbaycan,
İraq, Kərkük, Qazaxıstan,
Ay Səringül, axrı Turan,
Olub Könül Köşkümüzün!

QÜRBƏT ELİN QAYDASI BU

Qara teli çal eyləyər,
Çox dilləri lal eyləyər,
Dərdi-qəmi bol eyləyər,
Qürbət elin qaydası bu!

Əzrayıla "gəl" söyləyər,
"Tez bu canı al" söyləyər,
Zəhər verib bal söyləyər,
Qürbət elin qaydası bu!

Qürbət gözü kor eyləyər,
İşlərini zor eyləyər.
Hər yanını tor eyləyər,
Qürbət elin qaydası bu!

QARA TELLƏRİN

Baxanları tora saldı,
Yaman haldan-hala saldı,
Qarsaladı, qora saldı,
Sənin o qara tellərin.

Darayardın duran kimi,
Yeriyərdin ceyran kimi,
Qıvrılardı ilan kimi,
Sənin o qara tellərin.

Neçə dili lal eylədi,
Çoxunu bihal eylədi.
Dava-qalmaqal eylədi,
Sənin o qara tellərin.

Sağa-sola hara döndü,
Sanki ahu-zara döndü,
Dağ başında qara döndü,
Sənin o qara tellərin.

Sadə qəlbi gülüstandı,
Oxunmamış bir dastandı.
Ayrılıq gəldi, yaslandı,
Sənin o qara tellərin.

AĞRIN ALIM

İnsaf hanı,
Məni tanı,
Verrəm canı,
Ağrın alım!

Dağda qartal,
Düzdə maral,
Könlümü al,
Ağrın alım!

Səhər mehi,
Gülün şehi,
Eylə behi,
Ağrın alım!

Dağa çıxaq,
Qəmi yıxaq,
Çiçək yığaq,
Ağrın alım!

Dünya yalan,
Yoxdu qalan,
Sadə nalan,
Ağrın alım!

GÖRƏR-GÖRMƏZ

Bir ox atdın, yaralandım,
Dəli oldum, havalandım.
Almaz kimi cilalandım,
Elə səni görər-görməz.

İtirirəm mən başımı,
Düşüncəmi–yaddaşımı.
Axıdıram göz yaşımı,
Elə səni görər-görməz.

Sadəyəm, bihal oluram,
Yanaqları al oluram,
Dilim tutmur lal oluram,
Elə səni görər-görməz.

OLMAZ ƏHDİ-İLQARI

Hər vaxt üzə gülənin,
Tək sözü xoş gələnin,
Hamını bir bilənin,
Olmaz əhdi-ilqarı.

Yaramayan bir işə,
Çox danışar həmişə.
Saqqız olmaz kirişə,
Sevindirər əğyarı.

Sadə demir heç hədər,
Nadan dərd-qəm göndərər,
Cəhənnəmə döndərər,
Bağ-bağçanı, gülzarı.

APARDI

Qan-tər tökdüm, bostan əkdim,
Yağış yudu, sel apardı.
Taxıl biçdim, günə sərdim,
Tufan qopdu, yel apardı.

Ömrüm keçdi qelü-qalda,
Karvan getdi, qaldım dalda,
Çoxalmadı dövlət-mal da,
Ağız yedi, əl apardı.

Daş-kəsəkli yola döndüm,
Bir qurumuş kola döndüm,
Mən Sadəyəm, gülə döndüm,
Yolçu yoldu,yel apardı.

GÜN TAXTINA ÇIXANDA

Göylər nura boyanar,
Yer yuxudan oyanar,
Yarını da yar anar,
Gün taxtına çıxanda.

Çəməndə çiçək açar,
Nəğməli quşlar uçar.
Çöllərdə ceyran qaçar,
Gün taxtına çıxanda.

Sadə dağlarda olsun,
Qəlbi sevinclə dolsun.
Doğma diyarda olsun,
Gün taxtına çıxanda!

BİR KÖRPƏNİN GÜLÜŞÜ

Andırar şam-çırağı,
Nurlandırar otağı,
Şənləndirər sol-sağı,
Bir körpənin gülüşü.

Nəğmə kimi səslənər,
Ruhumuz da süslənər.
Ətir olub çilənər,
Bir körpənin gülüşü.

Verib təbdən badəni,
Xoşhal eylər Sadəni.
Qovar qəmi-qüssəni,
Bir körpənin gülüşü.

ZALIM ŞAHIN AQİBƏTİ

Yığdığını dünyada,
Heç vaxt yeyən olmayıb.
Yaranandan dünyaya,
Mənim deyən olmayıb.
Verir varı-dövləti,
Bizi sınağa çəkir.
Kim aşırsa həddini,
Başındaca turp əkir.

Biri toxdu, biri ac,
Çoxu çörəyə möhtac.
Acın imanı olmaz,
Tox sənə məhəl qoymaz.
Kim incidər milləti,
Artar dərdi-möhnəti.

Biri varmış, biri yox,
Ağıllı az, dəli çox.
Anam deyər qədimdə,
Zalım bir şah yaşarmış,
Yaradanın heyfini,
Yaranmışdan alarmış,

Sevməyirmiş heç kimi,
Oymuş xalqın qənimi.
Şah olubdu bir zəli,
Kəsib uzanan əli.

Qoymayıb daş-daş üstə,
Hamını edib xəstə,
Günahsız qanlar töküb.
Anaları ağladıb,
Asdırıb qoca-cavan.
Görk üçün də saxladıb.
Cürət edib bir nəfər,
Deməyib ey şah, yetər.
Xalqı çapıb talama,
Quduz kimi dalama.
Anası çəkib ahı,
Danlayıb həmin şahı.
Zalım olma söyləyib,
Şahsa gör nə eyləyib.
Heyvan kimi bağırıb,
Vəzir-vəkil çağırıb.
Onlar gəlib cəm olub,
Qarıya sitəm olub.
Dönə-dönə döyüblər,

Çox incidib, söyüblər.
Onu çölə atıblar.
Gəlib rahat yatıblar,
Axıb qarının qanı,
Nagahan çıxıb canı.

Dörd bir yana yayılıb,
Bunun səsi-sədası.
Varmış elə bir igid,
Sanki pələng balası.

Geyinib, hazır olub,
Qəlbi nifrətlə dolub.
O, saraya çatınca,
El yetişib dalınca.
Şahı vurub öldürüb,
Sərvətini böldürüb.

Şəhərdə ac qalmayıb.
Kimsə incik olmayıb.
Oğlan özü olub şah,
Bir kimsə çəkməyib ah!

SƏNİN DOĞDUQLARIN

Düşünmə ki, ağa-bəydi,
Zırramadı, dəli-səydi.
Hərəsi bir qəlbə dəydi,
Budur sənin doğduqların.

Sizdə dedi-qodu çoxdu,
Böyük-kiçik qanan yoxdu.
Gəlin tülkü, oğul loxdu,
Budur sənin doğduqların.

Qızların evlər yıxandı,
Kimisi falabaxandı,
Araqatan, kor şeytandı,
Budur sənin doğduqların.

Qız doğubsan şalban kimi,
Çəmbərlənir ilan kimi,
Nərildəyir aslan kimi,
Budur sənin doğduqların.

Sən əncam çək ey Yaradan,
Tapılmasın yurdda qalan.
Sadə deyər bunu hər an,
Budur sənin doğduqların.

DEMƏDİMMİ

Pir Sultan Abdala nəzrə

Qarma-qarışıq yuxuyam,
Yozanmazsan demədimmi?
Qələm çalan belə çalıb,
Pozanmazsan, demədimmi?

Tanımır heç bəy-sultanı,
Eşq deyilən gənc meydanı.
Yıxılanın yanar canı,
Dözənməzsən, demədimmi?

Sadə güldü, ətri mindi,
Bacarırsan gəl dər indi.
Sirri dərindən dərindi,
Çözənməzsən, demədimmi?

DÜNYA

Kədərin sevinclə qoşa,
Bələndim mən al qumaşa.
Qızıl, gümüş, həm daş-qaşa,
Pis olmadı halım dünya.

Naxış-naxış dərdlər gördüm,
Saçıma qəm qatıb hördüm,
Dərdlə birgə dağa döndüm,
Rəhm etmədin zalım dünya.

Gah ağa, gah qul eylədin,
Dara saldın yol eylədin.
Sitəmini bol eylədin,
Zəhər oldu balım dünya.

Çox uzatma imtahanı,
Daddım acı, şirin tamı,
İtirmədim din-imanı,
Ver qiyməti alım dünya.

Könül evim dərya-ümman,
Vermədin heç ona aman.
Səringül də sənə mehman,
Ömrüm yağan qarın dünya!

RUHUM
(Elmira Mahal qızına nəzirə)

Cümlə-cahanı titrədir,
Mülki-Süleymandı ruhum.
Fizuliylə eşqdən deyib,
Xəyyamla dolandı ruhum.

Yarır Bisütun dağını,
Gəzir Məcnun oylağını.
Alıb Əsli sorağını,
Kərəm tək yanandı ruhum.

Bir günəşdi baxsan haçan,
Kainata işıq saçan.
Səmalarda qanad açan,
Qartaldı, tərlandı ruhum.

Havalanır saz sinəsi,
Çiçəklənir yaz sinəsi.
Dopduludur söz sinəsi,
İnləyən kamandı ruhum.

Xəmiri haqla yoğrulub,
Səringül belə doğulub.
Nur saçıb, zülmət boğulub,
Hamıya hayandı ruhum.

GÖZƏL

Oğurlayıb Allahdan gün,
Gəzirsən havalı gözəl,
Dilliləri tora salıb,
Dindirirsən lalı, gözəl.

Açıq sinən quzey qarı,
Geyinirsən atlas, xarı,
Bir boylansan bizə sarı,
Dağların maralı gözəl.

Külək vurub tel oynayır,
Bədən əsir, bel oynayır.
Səni görüb el oynayır,
Götürmə babalı, gözəl!

BAŞKEÇİD

Bulaqları bulud gözlü,
Gözəlləri günəş üzlü,
Dilləridi ata sözlü,
Elim-obam, a Başkeçid!
Yurdum-yuvam, a Başkeçid!

Gözəl abı-havalısan,
Yazda nərgiz-lalalısan.
Yayda qonaq-qaralısan,
Canda canım, a Başkeçid,
Şöhrət-şanım, a Başkeçid!

İnsanları dağ ürəkli,
Səxavətli düz-çörəkli,
Xoş arzulu, xoş diləkli,
Din-imanım, a Başkeçid,
Ad-ünvanım, a Başkeçid!

ADAM DA VAR, ADAM DA

Cürbəcürdü insanlar,
Bəzisi dost-havadar.
Bəzisi də sanki qar,
Adam da var, adam da.

Biri canım parası,
Gözlərimin qarası.
Biri ürək yarası,
Adam da var, adam da.

Çoxdu asıb-kəsəni,
Səringüldən küsəni,
Olur kara gələni,
Adam da var, adam da!

AY QUZU OTARAN OĞLAN

Ay quzu otaran oğlan,
Dər, dağların gülü mənəm.
Yadındamı keçən günlər,
O dəcəl qız-dəli mənim,
Yerin-göyün sirri mənəm.

Yaylaqlarım Ağlağandı,
Gedəmmirəm nə zamandı,
Qürbət ellər can alandı,
Kərəm yandı, külü mənəm,
Sevənlərin piri mənəm.

Gözləyirəm gəl gir qola,
Tanrım bizə kömək ola.
Baxma sağa, baxma sola,
Eşqin gövhər-ləli mənəm,
Gözəllərin səri mənəm.

Ay quzu otaran oğlan,
Tütəyi yan çalan oğlan,
Gözü məndə qalan oğlan,
Səringüləm, pəri mənəm,
Yeddi qızdan biri mənəm.

SEVDİM

Gördümsə də naz-neməti,
Dərk eylədim həqiqəti.
Unutmadım təbiəti,
Çəmən-çiçək, eli sevdim.

Ayrı düşdüm o Vətəndən,
Başkeçiddən, duman-çəndən.
Mən keçsəm də çox gülşəndən,
Yenə yurdu eli sevdim!

Səringüləm, çəkdim zillət,
Qismətimə düşdü qürbət.
Hey söylədim vətən-millət,
Doğma ana dili sevdim.

ÖLÜM

Ölüm Allah əmridi,
Yerin-göyün sirridi.
Fələyin bir zəhridi,
Ondan heç vaxt qaçılmaz.

Tapşırılıb mələyə,
Bıçaq çəkir diləyə.
Qorxu salır ürəyə,
Ona qucaq açılmaz.

Yox eyləmək amacı,
Sadə, alır xəracı.
Yoxdu onun əlacı,
Caynağından çıxılmaz.

YOXDU

Nə kəndli, nə şəhərlisən,
Dili yaman zəhərlisən.
Ötürməyə hünərlisən,
Çalışmaqla işin yoxdu.

Bilməyirsən cəhrə-daraq,
Ədəb-ərkan səndən iraq.
Təmizlənmir eyvan, otaq,
Nə də ki, biş-düşün yoxdu.

Bəzənirsən-sallanırsan,
Yeyib-içib, allanırsan,
Kefin qalxir hallanırsan,
At ağızlı kişin yoxdu.

Anlamasan buzov-dana,
Ər əlindən gəlib cana.
Ev bənzəyir dəyirmana,
Toyuqlara "kiş"in yoxdu.

Qəflətdəsən, qalxıb-oyan,
Bu deyilən sözlər qan.
Səringülə gəl baxma yan,
Sənin əqlin-huşun yoxdu.

BİZİM QORQUD DƏDƏMİZ

Çalıb qolça qopuzu,
Tərif edib Oğuzu,
İgid oğlan, saf qızı.
Bizim Qorqud dədəmiz!

Çəkib Vətən qeyrəti,
Alqışlayıb milləti.
Məhəmmədin ümməti
Bizim Qorqud dədəmiz!

Xalqa verib duanı,
Önə çəkib Turanı.
Səringülün qəlb-canı
Bizim Qorqud dədəmiz!

HƏR BİR QADIN

Nigar kimi, Həcər kimi,
Xanım-xatın, dilbər kimi,
Altun-axça, gövhər kimi
Olmalıdır hər bir qadın.

Tərbiyəni, adı-namı,
Tükənməz eşqi-ilhamı.
Ağsaqqaldan söz-kəlamı
Almalıdır hər bir qadın.

Sadə deyən sözü sına,
Diqqət eylə faydasına.
Hər işi öz qaydasına
Salmalıdır hər bir qadın.

TANRI

Qürbətdəyəm, dardayam,
Fələk atan tordayam.
Çovğun-boran, qardayam,
Göstər mənə yol, Tanrı!

Heç bilmirəm, hardayam,
Həyatdayam, gordayam!
Alov-atəş, qordayam,
Mənə kömək ol, Tanrı!

Tut əlindən Sadənin,
O qulundu, bil, sənin.
Qov başından sis-çənin
Ey kərəmi bol Tanrı!

DÜNYAMIZIN

Qulağı kar, dili laldı,
İşi-gücü qalmaqaldı.
Saxlanc yeri torpaqlardı
Yalan, talan dünyamızın.

Rəhmsizdi, amansızdı,
İnsafsızdı, o, qansızdı,
Mərhəməti yaman azdı
Yalan, talan dünyamızın.

Sadə batıb göz yaşına,
Canlar yanıb ataşına.
Heç kəs and içməz başına
Yalan, talan dünyamızın.

VƏTƏN

Ayrılsam da neçə vaxtdır,
Doğma kəndim, döndüm yenə.
Salam-kalam gətirmişəm
Qəriblərdən bil ki sənə.

Kim yaşayır burda müdam,
Kömək olsun uca Mövlam.
Mən də alıb bundan ilham,
Nəğmə yazım qoy Vətənə.

Sarıbulaq, Sarıyarğan,
Qaraqaya, Leyləkuçan,
Onlara bu canım qurban,
Bənzəyirlər bir gülşənə.

Sarf dərəsiz ağladım qan,
Əyriqarsız çəkdim aman.
Gör neçə il, neçə zaman
Həsrət qaldım duman-çənə.

Səringüləm, axşam-səhər
Qürbət eldə gördüm qəhər.
İnanmayan varsa əgər
Baxsın başa düşən dənə.

TANRIM VERSİN RUZİSİNİ HƏMİŞƏ

Ata-ana əllərini öpənin,
Yar başına tər gülləri səpənin,
Çətin gündə dada-hoya yetənin
Tanrım versin ruzisini həmişə.

Qardaşının başına and içənin,
Yaxşıları yamanlardan seçənin,
Qohum-qonşu, oğul-uşaq sevənin
İstərəm ki, əli çatsın bir işə.

Körpələri əzizləyib oxşayan,
Vətən, millət eşqi ilə yaşayan,
Səringül tək naz-neməti boşlayan
Ömrü boyu çəkməsin dərd-əndişə.

QARDAŞ-BACI

Qardaş-bacı oldu andım,
Başlarına hey dolandım.
Suya düşdüm, odda yandım,
Mən onların yollarında.

Qardaş-bacı can-ciyərim,
Göydə günəş, ay ülkərim.
Onlar mənim dürr-gövhərim,
Can verəydim qollarında.

Sadə, sözü sona yetir,
Dəyərlidi hər bir sətir.
Ulu Tanrım, güllər bitir
Qardaş-bacı güzarında!

KƏNDİM

Var ol səni, doğma kəndim,
Mən dil açıb səndə dindim.
Dağa qalxıb düzə endim,
Hər yanına cığır saldım.

Yedim yağ-bal, qaymağından,
Saf su içdim bulağından.
Yayda keçdim yaylağından,
Dəyəmizdə xeyli qaldım.

Gah duruldum, gah bulandım,
Çəmənləri çox dolandım.
Tək sən oldun əhdim-andım,
İlhamımı səndən aldım.

Zaman məni saldı selə,
Qəm-kədərim düşdü dilə.
Gedən zaman qürbət elə,
Sevincimi daşa çaldım.

Elim-günüm, ömrüm yanıb,
Qəriblikdən can usanıb.
Səringüləm, sizi anıb
Xəyallara mən çox daldım.

EŞQ

Eşq Tanrının sözüdü,
Eşq həyatın özüdü.

Eşq insanlıq barıdı,
Aydan-gündən arıdı.

Eşq səhranı bağ eylər,
Eşq üzləri ağ eylər.

Eşq sevinclə doludu,
Eşq cənnətin yoludu.

Eşq oynadır dağ-daşı,
Hər arzunun eşqdir başı.

Eşqdir qəlbə iz salan,
Eşqsiz dünya bir yalan.

Sadə eşqin nökəri,
Sönməsin eşq ülkəri!

BİZİM HƏR BİR QADINIMIZ

Sara xatun hörmətlidi,
Nigar kimi ülfətlidi.
Həcər kimi qeyrətlidi,
Bizim hər bir qadınımız.

Məhsətidi, Natəvandı,
Aşıq Pəri, həm Heyrandı.
Tanrımızdan ərməğandı
Bizim hər bir qadınımız.

Sevir Vətən, sevir ana,
Yaraşıqdı bu cahana.
Yetişibdi ada-sana,
Bizim hər bir qadınımız.

Böyüdübdü oğul-uşaq,
Deyilibdi ona qoçaq.
Qoymayıbdı sönsün ocaq,
Bizim hər bir qadınımız.

Xoş arzu, xoş məramlıdı,
Ağıllıdı-kəlamlıdı.
Sadə kimi ilhamlıdı,
Bizim hər bir qadınımız!

BİZ

Almışıq eşq-ilhamı,
Demişik söz-kəlamı.
Çağırmışıq Mövlamı,
Vətən üçün, el üçün!

İslam olub dinimiz,
Həm ömrümüz-günümüz.
Qurban verrik canı biz,
Doğma Ana dil üçün!

Sadə deyir şanımız,
Borçalıdı canımız.
Darıxırıq hamımız
Dağda çiçək-gül üçün!

SALAM OLSUN

Xalqı üçün çalışana,
Hər zəhmətə alışana,
Vətən sevən hər insana
Cani-dildən salam olsun!

Yıxılanı qaldırana,
Azad nəfəs aldırana,
Kim saxlayır ata-ana,
Cani-dildən salam olsun!

Sadə deyir Azərbaycan,
Sənə mənim canım qurban.
Kim düşünür belə hər an,
Cani-dildən salam olsun!
Tanrımızdan ilham olsun!

DİLİM MƏNİM

Ünsiyyətin açarıdı,
Xalqımızın vüqarıdı.
Tanrımızın nübarıdı,
Doğma-əziz dilim mənim.

Qovuşdurur yarı-yara,
Xitam verir qəm qubara.
Hər bir anda gəlir kara,
Zəngin, təmiz dilim mənim.

Çox qədimdir, çox uludur,
Hikmət ilə o doludur.
Millətimin simvoludur,
Əngin dəniz dilim mənim.

Üzümüzə açıbdı dan,
Olsun ona canım qurban.
Türk diliylə yaranışdan
Olub əkiz dilim mənim.

Eyləyibdi dərdlini şən,
Azərbaycan ona Vətən.
Səringüləm, önündə mən,
Çökərəm diz, dilim mənim!

QADIN

Qadın belə eləsin,
Qundağını bələsin.
Ələyini ələsin,
Qoy başlasın biş-düşə.

Əli körpə əlində,
Xanım olsun elində.
Allah sözü dilində,
Düşməsin heç təşvişə.

Namus-arı gözləsin,
Evdə yarı gözləsin.
Əhd-ilqarı gözləsin,
Çəkməsin qəm-əndişə.

Bağçada gül bitirsin,
Dərd-möhnəti itirsin.
Qadın şadlıq gətirsin,
Başlasın bu vərdişə.

Hörmət etsin özünə,
Ocağına-közünə.
Sadənin bu sözünə
Qulaq assın həmişə.

EYLƏ DƏRDİN DƏVASINI

Gəl uyma heç dövlət-vara,
Sən olarsan bir avara.
Savab qazan, düzlük ara,
Yaxşı insan adlanarsan.

Yerdən qaldır yıxılanı,
Dərd əlindən sıxılanı.
Tənha qoyma yaxılanı,
Onda sən də şadlanarsan.

Çək ananın cəfasını,
Eylə dərdin dəvasını.
Al Sadənin duasını,
Yoxsa yanıb odlanarsan.

ƏRKANLIYA CAN QURBAN

Belə ata sözü var:
"Utanmazdan qaç qurtar".
Eyləyirəm ahu-zar,
Yer tapmıram qaçmağa.

Necə ki, bir ördək, qaz,
Hər yerdə var utanmaz.
Namus-arlı azdı, az,
Vaxt yox qapı açmağa.

Ərkanlıya can qurban,
Sadə sevir onu, qan.
Ona tərəf hər zaman,
Qanadı yox uçmağa.

EYLƏR

Heyfin gəlsin əməyinə,
Yetmə namərd köməyinə.
Qiymət verməz heç nəyinə,
Axır səni peşman eylər.

Müxənnətdən olmaz paşa,
Geri çəkər, almaz başa.
Yol-ərkanı çaşa-çaşa
Göz yaşını giryan eylər.

Zalım səni başdan əkər,
Ətrafına çəkər çəpər.
Yollarına tikan əkər,
Həyatını zindan eylər.

Hey qaraldar o qanını,
İtirər öz vicdanını.
Görsə kiçik nöqsanını,
Əsib-coşar, tufan eylər.

Səringülü verib selə,
Sənsə uyma fəndi-felə.
Yatağa da düşsən belə,
Demə sənə dərman eylər.

DÜNYA

Bel bağlama bu dünyaya,
Döndərər bir günü aya.
Almaz vecə, salmaz saya,
Dərd üstündən verər dərdi.

Dünya bil ki, haçadildi,
Nə aqildi, nə adildi.
Bunu hamı yaxşı bildi,
Dönə-dönə vurdu mərdi.

Eyləyibdi çox günahı,
Hərə bir cür çəkib ahı.
Həm axşamı, həm sabahı
Səringülə zəy-zəhərdi.

GƏLİB MƏNİ QINAYIR

Ayağına daş düşən,
Yanağına yaş düşən,
Nədənsə də çaş düşən
Gəlib məni qınayır.

Düzdə qalan dəvəsi,
Dəcəl olan nəvəsi,
Gedən eşqi-həvəsi
Gəlib məni qınayır.

Gecə yuxu yatmayan,
Arzusuna çatmayan,
Aldığını satmayan
Gəlib məni qınayır.

İnəyi süd verməyən,
Bağından bar dərməyən,
Qohumunu görməyən,
Gəlib məni qınayır.

Səringüləm, hər vədə
Usta, xoca, vəli də,
Ağıllı da, dəli də
Gəlib məni qınayır.

BAŞQA QOHUM AXTARIRSAN

Mən yanında ola-ola
Boylanırsan sağa-sola.
Rəngin-ruhun sola-sola
Başqa qohum axtarırsan.

Gündə girmə bir oyuna,
Boz ip ölçüm mən boyuna.
Neylədim ki, sən qoyuna,
Başqa qohum axtarırsan.

Sadə səni yıxdımı heç?
Məngənə tək sıxdımı heç?
Axırına çıxdımı heç?
Başqa qohum axtarırsan.

BİLİN Kİ, BİZDƏN DEYİL

Qanmayan söz qədrini,
Od-ocaq, köz qədrini.
Bilməyən öz qədrini
Bilin ki, bizdən deyil.

Süzdürən göz-qaşını,
İtirən yaddaşını,
Ərə atan daşını
Bilin ki, bizdən deyil.

Çox edən qeybətini,
Yox edən hörmətini,
Hey tökən üz ətini
Bilin ki, bizdən deyil.

Axmayan alın təri,
Bambılı, səy-sərsəri,
Şeytanın qul-nökəri
Bilin ki, bizdən deyil.

Olmayan namus-arı,
Çoxaldan ahu-zarı,
Şər-böhtan havadarı
Bilin ki, bizdən deyil.

Avazı bayquş kimi,
Dolanan bihuş kimi,
Qiyməti quruş kimi
Bilin ki, bizdən deyil.

Sadəni eşitməyən,
Hər zaman qəlbə dəyən,
Hamıya ağız əyən
Bilin ki, bizdən deyil.

BİZİM BƏZİ QOHUMLAR

Yaman günə qoydular,
Gözümüzü oydular,
Dərimizi soydular
Bizim bəzi qohumlar.

Toy-nişanda seçdilər,
Yalandan and içdilər.
Üstümüzdən keçdilər
Bizim bəzi qohumlar.

Şimşək kimi çaxdılar,
Səringülü yaxdılar.
Suya düşüb axdılar
Bizim bəzi qohumlar.

YOXDU

O yana çək, bu yana çək,
Heç bir yerdən yoxdu kömək.
Təklənmişəm, qalmışam tək,
Səsimə səs verən yoxdu.

Sınamışam neçə kərə,
Öz cibini güdür hərə.
Bircə dərdə, bir kədərə
Sinəsini gərən yoxdu.

İnsaf-mürvət, din-imanlı,
Qəlbi təmiz, istiqanlı,
İnsanpərvər, qohumcanlı,
Yoxa çıxıb, görən yoxdu.

Gəzdim şəhər, gəzdim kəndi,
Halal-hümmət, bəy əfəndi,
Güldürən bir dərdiməndi,
Comərd cavan, ərən yoxdu.

Gileyliyəm bu çağımdan,
Hey ah qopur dodağımdan.
Səringüləm, söz bağımdan
Barı tapıb dərən yoxdu.

NEYLƏYİM MƏN?

Hamı olub mənə qənim,
Çoxdu dirsək göstərənim,
Çevrilib üz döndərənim,
Zar etməyim, neyləyim mən?

Bir düz yolu olmayanı,
Qəlbi dolu olmayanı,
El qeydinə qalmayanı
Xar etməyim, neyləyim mən?

Qəfil düşdüm daşqın çaya,
Tapılmadı yetən haya.
Bu dərdimi el-obaya
Car etməyim, neyləyim mən?

Kim gülürsə göz yaşına,
Yan baxırsa qardaşına,
Gen dünyanı səy başına,
Dar etməyim, neyləyim mən?

Görəndə kim çəkir qəmi,
Kim kef edib, alır dəmi,
Səringüləm, dağlar kimi,
Qar etməyim, neyləyim mən?

KƏLƏKSƏN

Dillənirəm, küsürsən,
Dillənmirəm, əsirsən.
Taqətimi kəsirsən,
Məndən razı qalmırsan.

Sanırsan ki, mələksən,
Xoş ətirli çiçəksən,
Öz aramız, kələksən,
Məni vecə almırsan.

Yaxşı dolan, bixəbər,
Səringüllə birtəhər.
Rəftarın pis, dil zəhər,
Bir yerə kül salmırsan.

DEYİRSƏN

Ar-namusu atmısan,
Qəflətdəcə yatmısan.
Günahlara batmısan,
Mən halalam deyirsən.

Başlama heç hay-küyə,
Bənzəyirsən gic-səyə.
Utanmırsan bəs niyə
Pürkamalam deyirsən.

Sən Sadəni yaxşı qan,
Başdan-başa saxtasan.
Bir quruca taxtasan,
Mahcamalam deyirsən.

DƏRD

Neyləyirsən eylə sən,
Dərd əlindən yox aman.
Yüz də bağla qapını,
Gəlib düşər bacadan.

Dərd arxanca sürünər,
Gecə yarı görünər.
Səhər tezdən olar nər,
Onun üçün yox zaman.

Bilməz vaxtı-vədəni,
Seçməz cavan, dədəni.
Hey incidib Sadəni
Eyləyər çox pərişan.

DAVAM EYLƏ

Sən doğru ol, mən yalançı,
Sən tacir ol, mən talançı.
Sən zərgər ol, mən palançı,
Söhbətinə davam eylə.

Sənin işin çox çətindir,
Qəbahətin neçə mindir,
Gop eyləmək adətindir,
Qeybətinə davam eylə.

Qəflətdəmi de yatırsan,
Hərəyə bir söz atırsan.
Aralığı hey qatırsan,
Sənətinə davam eylə.

Anlamırsan düz dünyanı,
Qınayırsan hər insanı.
Kinin tutub dörd bir yanı,
Nifrətinə davam eylə.

İnsaf-dindən çıxmısan sən,
Yoxdu sən tək zalım zənən.
Səringülü bilib düşmən,
Töhmətinə davam eylə.

KÖÇÜRSƏN, KÖÇ

Qırx il əyri bitən ağac
Düzələrmi bir gündə heç?
Sən pul-para, dövlət üçün
Öz canından keçirsən, keç!

Zəhlən gedir işləməkdən,
Öldüm sənə dərs deməkdən.
Anlayırsan tək yeməkdən,
Qazanı yar seçirsən, seç!

Durma tələ qura-qura,
Aralığı vura-vura.
Sadə deyir, get gir gora,
Cəhənnəmə köçürsən, köç!

DÜNYA

Adlını edir addan,
Seçilmir yağı, yaddan.
Nə də ki, alov-oddan,
Əzəldən viran dünya.

Kimsəni salmır saya,
Əl atır oxa-yaya.
Döndərir toyu-vaya,
Pusquda duran dünya.

Çevirir kürəyini,
Əsdirir küləyini.
Sadənin ürəyini
Sındırıb-qıran dünya.

NƏ GƏZİR

Nə vaxt işin bad olar,
Hamı sənə yad olar.
Gözləmə ki, dad olar,
Kömək verən nə gəzir!

Çəksən yemək, su dərdi,
Ümid etmək hədərdi.
Heç axtarma comərdi,
Çörək verən nə gəzir!

Sadə, çəksən intizar,
Bu gen dünyan olar dar.
Demə həyan tapılar,
Ürək verən nə gəzir!

OLMAYIN SİZ

Aldanmayın vara-hala,
Düşərsiniz qalmaqala.
Nəsihətdir məndən, bala,
Acgöz, xəsis olmayın siz.

Uymayın boş söz-söhbətə,
Başlamayın şikayətə.
Qurşanmayın ədavətə,
Yaramaz-pis olmayın siz.

Götürməyin qaxınc-minnət,
Qazanın ad, hörmət-izzət.
Səringülə verin diqqət,
Bir tüstü-his olmayın siz.

YANDIRMADIM ÖMRÜMÜ MƏN

Xoş arzu, xoş dilək etdim,
Neçəsinə kömək etdim.
Hər yanı gül-çiçək etdim,
Yandırmadım ömrümü mən.

O dağlardan ilham aldım,
Zirvələrə meyil saldım.
Saf yaşadım, saf da qaldım,
Yandırmadım ömrümü mən.

Səringüldü mənim adım,
Qaranlıqda od qaladım.
Faydalandı dostum-yadım,
Yandırmadım ömrümü mən.

MƏN XƏYALƏN GÖYLƏRDƏYƏM

Göydə ulduz işim-işim,
Onlar mənim dost-yoldaşım.
Həm şahidim, həm sirdaşım,
Mən xəyalən göylərdəyəm.

Göydə ulduz ala-seyrək,
Banuçiçək, hanı Beyrək.
Ulu Tanrım, eylə kömək,
Mən xəyalən göylərdəyəm.

Bir qulunam, eylə kərəm,
Mən də tezcə vətən görəm.
Səringüləm, yoxdu çarəm,
Mən xəyalən göylərdəyəm.

MƏNİ DAĞLARA YETİRİN

Yuxumda dağı görmüşəm,
O keçən çağı görmüşəm.
Buzlu bulağı görmüşəm,
Məni dağlara yetirin.

Düşmüşəm dağdan aralı,
Olmuşam qəlbi yaralı.
Dağsız bənizim saralı,
Məni dağlara yetirin.

Bildim özümü dağlarda,
Dedim sözümü dağlarda.
Tapdım dözümü dağlarda,
Dərdə çözümü dağlarda.
Məni dağlara yetirin,
Bu arzumu tez bitirin.

QÜRBƏT

Qürbət eldə qalmaq çətin,
Azad nəfəs almaq çətin.
Sən qürbətin çək xiffətin,
Görək rəngin saralmazmı?

Qürbətdə tək olanların,
Qəlbi qəmlə dolanların.
Dərd-azarı bulanların,
Deyin, səbri daralmazmı?!

Göz yaşını tökənlərin,
Qürbətdə dərd çəkənlərin,
Həsrətdən diz çökənlərin
Dağlarını qar almazmı?!

Aşiqiyəm qızılgülün,
Bağlarda şeyda bülbülün.
Eldən ayrı Səringülün
Rəngi-ruhu saralmazmı?!

DƏRDLƏRİMİZ

Dərdlərimiz növbənövdür,
Şahmar ilan, əqrəb, bövdür.
Atəş-alov, od-kösövdür,
Varımızdır yetərincə.

Dərdi peşkəş verən çoxdur,
Onu rəva görən çoxdur.
Bizə çəpər hörən çoxdur,
Tanıyıram mən görüncə.

"Sağ olsunlar" çatdıranlar,
Qəmi qəmə qatdıranlar,
Dərd altında yatdıranlar,
Pay çıxırlar bizə öncə.

ÜSTÜNƏ
(Bir gözələ...)

Qara qıvrım tellərini,
Dara, dağıt qol üstünə.
Sən gələndə gül-çiçəyi,
Qoy səpsinlər yol üstünə.

Dağ laləsi dodaqların,
Saf suyusan bulaqların.
Sanki təri yanaqların,
Şehdi, düşüb gül üstünə.

Gözəl yoxdur səndən betər,
Baxışların dünya qədər.
Sözlərindi şirin-şəkər,
Balmı çəkdin dil üstünə?!

AĞLANASI ÇOX CANLAR VAR

Arxayınam, çox arxayın,
Ölsəm, məni diri sayın.
Ağlamayın məni heç vaxt,
Ağlanası çox canlar var,
Toy görməmiş cavanlar var.

Bu dünyadan almışam kam,
Getməyirəm bilin, nakam.
Sızlamayın səhər-axşam,
Ağlanası çox canlar var,
Qəfil qopan tufanlar var.

Ağlamayın Səringülə,
Bahar görüb, çəkib çilə.
Yaş tökməyin gilə-gilə,
Ağlanası çox canlar var,
Şəhid olan insanlar var.

DÜNYA MƏNLƏ ÖCDÜ NİYƏ?

Qoruxmayıb xatasından,
Yapışacam yaxasından.
Soruşacam atasından,
Dünya mənlə öcdü niyə?

Söndürmədim çırasını,
Öldürmədim balasını,
Ağlatmadım anasını,
Dünya mənlə öcdü niyə?

Qarasınca söyləmədim,
Karvanını əyləmədim.
Saqqızını çeynəmədim,
Dünya mənlə öcdü niyə?

Bir palaza bürümədim,
Yerə yıxıb sürümədim.
Yol-izini kürümədim,
Dünya mənlə öcdü niyə?

Ağladıbdı, gülməmişəm,
Qazancını bölməmişəm.
Malı üçün ölməmişəm,
Dünya mənlə öcdü niyə?

Mənə verib bəlasını,
Dolu döysün yaylasını.
Butam çalsın "layla"sını,
Dünya mənlə öcdü niyə?

Heç düşünmür dönük ollam,
Qisasımı ondan allam.
Verdiyini daşa çallam,
Dünya mənlə öcdü niyə?

Fələk onu ovsandırdı,
Səringüldən nə qandırdı?
Yalan deyib utandırdı,
Dünya mənlə öcdü niyə?

VAR GİLEYİM

Bu fələkdən var gileyim,
Belə gəldi, bax taleyim.
Qalmadı heç gücüm, heyim,
Vuran vurdu, çalan çaldı.

Ömrümə qar, sazaq düşdü,
Qismətimə fəraq düşdü,
Şadlıq qaçıb uzaq düşdü,
Ürəyimi dərdlər aldı.

Gəzdim düzlük sorağını,
Tapdım eylik çırağını.
Səringül son marağını
Bayatıya, sözə saldı.

NƏ EYLƏYİM

Yaxınlarım uzaq olub,
Dünya mənə duzaq olub,
Dərdim qucaq-qucaq olub,
Bilmirəm heç nə eyləyim!?

Kim nə atsa mənə dəyir,
Fələk vurub qəddim əyir.
Hamı mənə hədyan deyir,
Bilmrəm heç nə eyləyim!?

Tər güllərim solub gedir,
Gözüm yaşla dolub gedir.
Səringül zar olub gedir,
Bilmirəm heç nə eyləyim!?

DÜNYA

Söylə mənə, bu gedişlə
Sən gedirsən hara, dünya?
Soruşanda mat qalırsan,
Dönürsən lal-kara, dünya!

Fələyə nə qandırıbsan,
Məni odsuz yandırıbsan.
Cəhənnəmi andırıbsan,
Bənzəyirsən gora, dünya!

Gəl az eylə mənə sitəm,
Qoysan mən bir yana yetəm.
Mən Sadəyəm, tər çiçəyəm,
Salma boran-qara, dünya!

GÜNÜDÜR

Heç bilmirəm nədən, niyə,
Sığşmıram yerə-göyə.
Qaldım gözüm döyə-döyə,
Qalxıb gəl, aman günüdür.

Dan sökülər, oyaq ollam,
Yollarına çıraq ollam.
Saçlarına daraq ollam,
Könlümün viran günüdür.

Gəlməsən canım çəkilər,
Qocalaram, diş tökülər.
Qədd əyilər, bel bükülər,
Ömrümün talan günüdür.

Mən Tanrının sadiq qulu,
Əzrayıl tapıbdı yolu.
İtirmişəm sağı-solu,
Sadənin solan günüdür.

DƏRDƏ DİVAN EYLƏMİŞƏM

Sənə deyim, a qardaşım,
Dərdə divan eyləmişəm.
Yıxıb dədəsin evini,
Yerlə-yeksan eyləmişəm.

Daşa tutub daşlamışam,
Suya salıb yaşlamışam.
Təqibə də başlamışam,
Onu qovub teyləmişəm.

Dilə basıb saxlamışam,
Əl-ayağın yağlamışam.
Zəncir vurub bağlamışam,
İndi bilin neyləmişəm.

AĞRIN ALIM

Sənə pələng, şirim deyim,
Ziyarətim, pirim deyim.
Qəlbimdəki sirrim deyim,
Üz-üzə gəl, ağrın alım.

Göydə durna qatar-qatar,
Xəbər göndər, mənə çatar.
Dağda səni tufan tutar,
En düzə gəl, ağrın alım.

Borçalıdır mənim elim,
Bir cənnətdir çəmən-çölüm.
Mən Sadəyəm, şirin dilim,
Tez bizə gəl, ağrın alım.

GƏLİN

Yüz adamı o kiridir,
Əlləm-qəlləmin biridir.
Saman altdan su yeridir,
Yoxdur belə şeytan gəlin.

Nə namus, nə ar eyləyir,
Dünyamızı dar eyləyir.
Bizi rüsvay, xar eyləyir,
Qanmaz, axmaq, nadan gəlin.

Sadə çəkir ondan haşa,
Bürünübdür al qumaşa.
Əri çalır daşdan-daşa,
Hey sulayır meydan gəlin.

DEYİLƏM

Mən sənin oğlun deyiləm,
Damazlıq toğlun deyiləm.
Bəsdir, məni iynələmə,
Yalançın, çuğlun deyiləm.

Mən sənin balan deyiləm,
Nə tazı-tulan deyiləm.
Nə də ki, mən buynuzlayıb,
Kimsəni vuran deyiləm.

Mən sənin qızın deyiləm,
Təhnədə duzun deyiləm.
Yetər məni qınadığın,
Xınalı quzun deyiləm.

Mən sənin yarın deyiləm,
Dövlətin-varın deyiləm.
Bu tərəfə çox boylanma,
Şəkərin, balın deyiləm.

Mən sənin qulun deyiləm,
Ərsizin – dulun deyiləm.
Hara gəldi atma məni,
Palazın, çulun deyiləm.

Mən sənin bacın deyiləm,
Başında tacın deyiləm.
Əllərini çək yaxamdan,
Borcun, xəracın deyiləm.

Mən sənin əmin deyiləm,
Dəryada gəmin deyiləm.
Qulluğunda durammıram,
Qarıyam, gəlin deyiləm.

Mən sənin dayın deyiləm,
Heyvansan, tayın deyiləm.
Sən heç ağzını açmamış,
Qanıram, ayın deyiləm.

Sadəyəm, xalan deyiləm,
Qeydinə qalan deyiləm.
Sözlərimi dərk elə, bil,
Doğruyam, yalan deyiləm.

VAR

Havalısan nədən belə,
Tuti kimi dillilər var.
Gəl sinənə döymə belə,
Səndən incəbellilər var.

Ay camallı, şirin dilli,
Altı-üstü elə bəlli.
Elçiləri gəlhagəlli,
Zərif, gözəl əlillər var.

Şahmar zülfün töküb dala,
Bənzəri var beçə bala,
Dodaq şəkər, yanaq lala,
Tər sinəsi güllülər var.

Təzə doğmuş Aya dönən,
İlahidən paya dönən,
Məhəbbəti çaya dönən,
Axıb gedən sellilər var.

Sadə deyir, Leyli yalan,
Kirpiyi ox, qaşı kaman,
Yanağından qanlar daman,
Qara qıvrım tellilər var,
Adı-sanı bəllilər var.

"AY DAŞ ATAN BƏXTƏVƏR"

Evində yox urvalıq,
İstəyirsən darğalıq.
Nə qoca var, nə balıq,
"Ay daş atan bəxtəvər,
Daşın da bir vaxtı var".

Çörəyin yox yeməyə,
Çadra gəzmə geyməyə.
Ümidlisən de nəyə?
"Ay daş atan bəxtəvər,
Daşın da bir vaxtı var".

Sadəyə xox gəlirsən,
Arxasınca gülürsən.
Üzdə muma dönürsən,
"Ay daş atan bəxtəvər,
Daşın da bir vaxtı var".

AĞLI-QARALI DÜNYANIN

Hiyləsi var, tələsi var,
Dağdan ağır şələsi var.
Çox bəndi var, bərəsi var
Ağlı-qaralı dünyanın.

Qanla dolu yəhəri var,
Balı, qəndi, zəhəri var.
Qəm-kədəri, qəhəri var
Ağlı-qaralı dünyanın.

Ağıllısı, dəlisi var,
Xocası var, vəlisi var.
Qaniçəni, zəlisi var
Ağlı-qaralı dünyanın.

Bir baxışdan qananı var,
Oda düşüb yananı var.
Təklənib tək qalanı var
Ağlı-qaralı dünyanın.

Gecəsi var, gündüzü var,
Dərə-təpə, dağ-düzü var.
Sadəyə də tərs üzü var,
Ağlı-qaralı dünyanın.

AĞLAMA, ŞƏHİD ANASI

Bundan böyük şöhrətmi var,
Bundan böyük qeyrətmi var,
Bundan böyük qiymətmi var,
Ağlama, şəhid anası!

Şəhid göydə ulduz, Aydı,
Tanrımızdan bizə paydı.
Gur bulaqdı, axan çaydı,
Ağlama, şəhid anası!

Şəhidi ellər ağlayır,
Çəməndə güllər ağlayır.
Kükrəyib sellər ağlayır,
Ağlama, şəhid anası!

KÖNLÜM

Əsirinəm, yesirinəm,
Nə yatmısan, oyan, könlüm.
Məndən yaxın de, kimin var?
Mənəm səni duyan, könlüm.

Salma məni dağa-daşa,
Güldürmə yara, yoldaşa.
Qıyma ağlım, huşum çaşa,
Gəl ol mənə həyan, könlüm.

Aldanma üzü göyçəyə,
Qonma çiçəkdən-çiçəyə.
Meyil sal sözü göyçəyə,
Sən Sadəyə inan, könlüm.

BAŞI ARVAD QOLTUĞUNDA

O kişidən kişi olmaz
Başı arvad qoltuğunda.
Ağsaqqallıq işi olmaz,
Başı arvad qoltuğunda.

Başdan aşsa dövlət-varı,
İtlə qovar bacıları.
Baldız olar dostu-yarı,
Başı arvad qoltuğunda.

Sadə, onlar nəsli danar,
Yaxşı sözü yaman qanar.
Qaynananı ana sanar,
Başı arvad qoltuğunda.

GÖZƏL

Dünyanın gərdişi gözəl,
Gəlişi-gedişi gözəl.
Varlı da, kasıb da ölür,
Dünyanın bu işi gözəl.

Tanrı verib gözəl payı,
Yaradıbdı ulduz-ayı.
Gur bulağı, axan çayı,
Onun bu bəxşişi gözəl.

O güldürür güldüräni,
O öldürür öldüräni.
Düşündürür bu Sadəni,
Əməli-vərdişi gözəl.

OLAM

Xan olam, sultan olam,
Devriləm, talan olam.
Gələndə qurban ayı
Mən sənə qurban olam.

Kür olam, Araz olam,
Dərin, həm dayaz olam.
Yar çala, yar oxuya,
Sinəsində saz olam.

Dağ olam, duman olam,
Qar, ayaz, boran olam.
Dönəm gülə, çiçəyə,
Yara ərmağan olam.

Təbib, ya loğman olam,
Dərdlərə dərman olam.
Çıxam Sənan dağına,
Məşhuri-cahan olam.

Ulduz olam, Ay olam,
Ulduzlara tay olam.
Mən Sadəyəm, gur bulaq,
Ya da axan çay olam.

OLAYDIM

Kərbəlanın torpağı,
Olanda qan oylağı.
Zeynəbin qəmli çağı
Yanında mən olaydım.

Atıb möhnət daşını,
Silərdim göz yaşımı.
Səsləyəndə Qasımı
Yanında mən olaydım.

Axtaranda gözləri
İmam Əli Əkbəri.
Canım ay Həzrət Əli,
Yanında mən olaydım.

Haqq kəssin baş kəsəni,
Kəsdi İmam Hüseyni.
Sipər edib sinəmi
Yanında mən olaydım.

Zeynəbimi sağlardım,
Yaraların bağlardım.
Gözüm üstə saxlardım,
Yanında mən olaydım.

HÜSEYN

Mən başına dolanım,
Ağam, İmam Hüseyn.
Sənə qurban bu canım,
Cavan ağam Hüseyn.

Məhəmmədin çırağı,
Sən İslamın dayağı.
Of! Kərbəla torpağı,
Oldu al-qan, Hüseyn!

Zeynəb ağlar qardaşı,
Qana dönüb göz yaşı.
Ahım yandırar daşı,
Aman, ağam Hüseyn!

Yolda qalsın namərdi,
Allah saxlasın mərdi.
Unudanmaz bu dərdi
İslam, ağam Hüseyn!

Hanı Əli Əkbərim,
Abbas kimi sərdarım.
Həsən, Hüseyn sərim,
Ay can ağam, Hüseyn!

FATİMEYİ-ZƏHRA

İki dünya xanımı,
Kamalına mərhəba.
Günəşdən, aydan gözəl
Camalına mərhəba!

Sığınmışam adına,
Bizi də sal yadına.
Ey Həzrəti-Fatima,
Cəlalına mərhəba!

Sənինlədir ürəyi,
Ol Sadənin köməyi.
Ay Cənnətin mələyi,
Şir Əlinə mərhəba!

OLDUM

Səhrada bulaq oldum,
Zülmətdə çıraq oldum.
Çoxuna dayaq oldum,
Ələ verdim əlimi.

Bir bağ saldım al-əlvan,
Qoymadım ola talan.
Danışmadım şər-böhtan,
Bal eylədim dilimi.

Dərk eylədim cahanı,
Yandırmadım imanı.
Hey çağırdım Mövlanı,
Deyim sizə sirrimi.

"Sağ ol" dedi, bil hamı,
Bu Sadənin ənamı.
Sevindirdim anamı,
Ağartsam da telimi.

CAN EVİM

Can evim xırman yeridi,
Bostandı, talan yeridi.
Vuran vurur, çalan çapır,
Kərənin sınan yeridi.

Can evim pirlər yoludu,
Yolçusu Tanrı quludu.
Hər yan müşk-ənbər qoxuyur,
Möcüzə, sirnən doludu.

Can evim cənnət bağıdı,
Mələklərin oylağıdı.
Sadəyəm, sadə ürəyim
Düzlüyün bir otağıdı.

FƏLƏK

Fələk, sənə yalvarıram,
Ayırma yarı yarından.
Daha kimsənin başına
Ələmə mənim qarımdan.

Canım yanır, kömür deyil,
Ürək ətdi, dəmir deyil.
Yarsız ömür ömür deyil,
Ayırdın cah-calalımdan.

Solmuş bağça gülü mənəm,
Diri ikən ölü mənəm.
Bəxtsizlərdən biri mənəm,
Çıxammazsan babalımdan.

DÜNYANIN

Bir şaxtalı qışa döndü
Güllü baharı dünyanın.
Ağzım için zəy eylədi,
Budur nübarı dünyanın.

Ərşə büləND ahu-zarım,
Kəsildi səbri-qərarım.
Yaya qaldı yağan qarım,
Oldum şikarı dünyanın.

Sola vurdu, sağa döndüm,
Çəmən idim, zığa döndüm.
Dərdi verdi, dağa döndüm
Sadədir zarı dünyanın.

NOLUR

Könül verib könül aldın,
Tut verdiyin sözü, nolur.
Yandırıbsan, qurdalama
Kül altında közü, nolur,
Kəsmə üzdən üzü, nolur.

Nə ki vardı canımda can,
Özüm olum sənə qurban.
Dərdlərimə eylə dərman,
Qoyma yerdə dizi, nolur,
Sizə salım izi, nolur.

Bircə günü il Sadənin,
Gül camalı kül Sadənin.
Hər kəlməsi ləl Sadənin,
Qoy danışsın özü, nolur,
Çək yollardan gözü, nolur.

HAMI DESİN BƏRƏKALLAH

Gümansızın gümanı ol,
Dərdlilərin dərmanı ol.
Kimsəsizin hayanı ol,
Hamı desin bərəkallah.

Ümid kəsib qırma inam,
Hey "sağ ol"dan qazan ənam.
Yaxşılıq et səhər-axşam,
Hamı desin bərəkallah.

Yoxla xəstə yatanları,
Qəm gölündə batanları.
Səringül tək insanları,
Hamı desin bərəkallah.

QADIN

Qadın desin düz sözünü,
Turşutmasın üz-gözünü.
Bəzəməsin tək özünü,
Həm də gərək evə baxsın.

Arxa dursun, çatsın dada,
Heç verməsin ömrü bada.
Oğul-uşaq yolunda da
Lazım gəlsə canı yaxsın.

Olsun Nigar, Həcər kimi,
Xanım-xatın, dilbər kimi.
Sadə sözün bir zər kimi
Qulağına alıb taxsın.

MƏNİM

Dediyimi deyən yox,
Gəlib qapı döyən yox.
İşlərimi əyən yox,
Nə təqsirim var mənim!

Nadan mənə yan baxır,
Hər sözümə qulp taxır.
Gözlərimdən yaş axır,
Dünyam olub dar mənim.

Hamı düşüb aralı,
Qəlbim olub yaralı.
Dərddən rəngim saralı,
Sadəyəm, ah-zar mənim.

YENƏ HƏMİN DÜNYADI

Toyu toya calanır,
Vayı vaya calanır.
Bir əldən də talanır,
Yenə həmin dünyadı,
Bir yuxudu, röyadı.

Dağı düzə çevrilir,
İçi üzə çevrilir,
Yolu izə çevrilir,
Yenə həmin dünyadı,
Yoxdu yaxın, nə yadı.

Səringül də olmasa,
Bu həyatda qalmasa,
Batan deyil heç yasa,
Yenə həmin dünyadı,
Qoymaz alaq muradı!

SƏNİ

Könül vermə biilqara,
Yarı yolda qoyar səni.
Söz anlamaz, kara dönər,
Düşünmə ki duyar səni.

Bir qış olub tufan eylər,
Yerdən göyə divan eylər.
Həmişə kor-peşman eylər,
Ayaqlara salar səni.

Sadə, gedər ömrün hədər,
Namərd verər qəmlə qəhər.
Gözləmə ki dada yetər,
İlan kimi çalar səni!

KÖNLÜMÜN

Bələyi qəmlə bələnib,
Üstünə dərd-qəm ələnib.
Axıb göz yaşı sellənib,
Gülməyib üzü könlümün.

Dəryalarda lilə dönüb,
Boz-bulanlıq selə dönüb,
Öz dərdini kimlə bölüb,
Titrəyib dizi könlümün.

Bəd gətirib ayı-ili,
Bağlanıbdı ağzı-dili.
Qanlı tutub Səringülü,
Tükənib sözü könlümün.

OLMUR

Gözəl var eşqi dəniz,
Rahatca üzmək olmur.
Gözəldən gözəli var,
Əlləri üzmək olmur.

Gözəl var huri-mələk,
Sinəsində yox ürək.
Addımı fitnə-kələk,
Danışsa dözmək olmur.

Gözəl də var həyalı,
Namus-qeyrət calalı.
Ad alıb süfrə salı,
Bir ömür bezmək olmur.

EYLƏYƏR

Sevda dolu yar baxışı,
Min dərdə dərman eyləyər.
Gəzdirib eşqin dağını
Bağında mehman eyləyər.

Gözəllik eşqin barıdı,
Ömrün güllü baharıdı.
Yönü dağlara sarıdı,
Yayda qar-boran eyləyər.

Onsuz ötsə ayı-ili,
Quruyar ağzında dili.
Oda salar Səringülü,
Bağrını al qan eyləyər.

GETDİ

Başa qonan bəxt quşunu
Tutammadım, uçdu getdi.
Bəxtim atlı, mən piyada,
Çatammadım, qaçdı getdi.

Cəfa çəkər, yığar balı,
Bal içində inlər arı.
Gözün tutan dünya varı
Harama yol açdı getdi.

Sadə sel kimi çağladı,
Qürbətdə vətən ağladı.
Fələk sinəsin dağladı,
Gördü dünya puçdu, getdi.

AĞLAYAQ

Aba, dünya imtahandı,
Bu fələyin əli qandı.
Ölüm Tanrıdan fərmandı,
Gəl olaq yoldaş, ağlayaq,
Balam de, qardaş, ağlayaq.

Aba, dərdim dağdan ağır,
Başımıza dolu yağır.
Ağlayanda məni çağır,
Gəl olaq yoldaş, ağlayaq,
Balam de, qardaş, ağlayaq.

Aba, qürbət can alandı,
Yaşayan-köçən nalandı.
Çəkdiyim sənə əyandı,
Gəl olaq yoldaş, ağlayaq,
Balam de, qardaş, ağlayaq.

OYNASIN

Vətənimə göz dikənin
Gözündə millər oynasın.
Viran qalsın yurd-yuvası,
Yerində yellər oynasın!

Yüklənibdi barxanalar,
Qurulubdu toyxanalar.
Erməni ki harada var,
Başında küllər oynasın!

Allah etsin qoy köməyi,
Budur Sadənin diləyi.
Yıxılsın namərd dirəyi,
Altından sellər oynasın!

AZƏRBAYCAN ƏSGƏRİ

Nahaq qana qan alandı,
Doğrularla dost olandı.
Zirvələrə yol salandı
Azərbaycan əsgərimiz.

Hava tutqun, boran-qardı,
Nəfəsiylə buzu yardı.
Zəfər çalıb, düşmən sardı,
Azərbaycan əsgərimiz.

Dünyada ad-sanı oldu,
Həm şöhrəti-şanı oldu.
Səringülün canı oldu
Azərbaycan əsgərimiz.

ZALIM OĞLU

Arı kimi zalım oğlu
Gündə qonur güldən-gülə.
Özü gəzir künc-bucaqda,
Sözü düşüb dildən-dilə,
Səs yayılıb eldən-elə.

Düşünməyir heç gərdişi,
Tanrım pozar, düzər işi.
Qanlıdı fələyin dişi,
Ağladacaq gülə-gülə,
Göz yaşını silə-silə.

İtiribdi o, sərini,
Tapanmayır öz yerini.
Alıb Sadə ürəyini,
Yerə vurub bilə-bilə,
Sırtıqlaşıb gələ-gələ!

BİZİM ULU BORÇALIMIZ

Tarixlərdə bəlli adı,
Ərənlərə yurd-yuvadı.
Yetiribdi çox ustadı
Bizim ulu Borçalımız.

Aran-dağlı, yaylaqlıdı,
Ceyran-cüyür oylaqlıdı.
Sərin sulu bulaqlıdı,
Bizim ulu Borçalımız.

Qol-budaqlı, pöhrəlidi,
Sadə deyir bəhrəlidi.
Huri-mələk çöhrəlidi
Bizim ulu Borçalımız.

OLMASIN

Aman Allah, mərd igidi
Heç bir zaman xar olmasın.
Çiçəklənib namərd bağı,
Budağında bar olmasın.

Söz anlamaz nadan-naşı,
Tökməz ətəyindən daşı.
Eyb axtarar addım başı,
İtib getsin, var olmasın.

Xasiyyətdə ilan-çayan,
Hamını bir düşmən sayan,
Sadə, gözü yolda qoyan
Bir kimsəyə yar olmasın.

OLSUN NAMƏRDİN

Qəmdən qardaşı,
Dərddən yoldaşı,
Lənət başdaşı
Olsun namərdin!

Hər işi zordan,
Döşəyi qordan,
Yorğanı tordan
Olsun namərdin!

Yediyi zəhər,
Çəkdiyi qəhər.
Özü dərbədər
Olsun namərdin!

Qurusun qolu,
Bağlansın yolu.
Qəlbi dərd dolu
Olsun namərdin!

AY ÜZÜ DÖNMÜŞ YARIM

Az iynələ, üz məni,
Aşiqlərtək süz məni.
Öz könlündə gəz məni,
Ay üzü dönmüş yarım.

Sənsən dünyanın başı,
Alıbsan ağlı-huşu.
Çartladı səbrim daşı,
Ay üzü dönmüş yarım.

Tanrım sevər qulunu,
Açar bağlı yolunu.
Sal boynuma qolunu,
Ay üzü dönmüş yarım.

Yandım alovda-közdə,
Düz olub, qaldım düzdə.
Ümid qoymadın bizdə,
Ay üzü dönmüş yarım.

Sözləriylə yandıran,
Baxışıyla donduran,
Sadəni usandıran
Ay üzü dönmüş yarım.

KÖNLÜM

Havalı könlüm,
Davalı könlüm.
Bəxti-iqbalı
Qaralı könlüm!

Yaralı könlüm,
Aralı könlüm.
Hicran əlindən
Saralı könlüm.

Ay dəli könlüm,
Şəppəli könlüm.
Qəm harda varsa,
Oralı könlüm.

GƏTİR

Durma, yarım, atını çap,
Axtar, ara, xoş günü tap.
Nə ərinib, nə yoldan sap,
Keçən ayı, ili gətir.

Hey axtardım, tapanmadım,
Quşa döndü, tutanmadım.
Vüsalına çatanmadım,
Qoxladığım gülü gətir.

Yaxşılıq cəm olub onda,
Ölən deyil bu cahanda.
Sadə qalıb ah-amanda,
O sevdiyi eli gətir.

YARA YAMAN QANDIRAN

Dilindən ilan çalsın,
Canını Allah alsın.
Karvanın düzdə qalsın,
Canı oda yandıran,
Yara yaman qandıran.

Yazın qarlı qış olsun,
Açmasın, gülün solsun.
Yorğanına qor dolsun,
Ümidləri sındıran,
Yara yaman qandıran.

Bəxtin tərsinə çönsün,
Həyat gözündə sönsün.
Payın palçığa dönsün,
Məni gözdən saldıran,
Yara yaman qandıran.

Əlin əldən üzülsün,
Gözün yaşı süzülsün,
Dərdin səfə düzülsün,
Canı buz tək donduran,
Yara yaman qandıran.

Dolu döysün bağını,
Gün qurutsun tağını.
Ye ürəyin yağını,
Sadəni usandıran,
Yara yaman qandıran.

TANRIMI UNUTMADIM

Səfalı yaylaq oldum,
Gur axan bulaq oldum.
Bir ovuc torpaq oldum,
Tanrımı unutmadım!

Gen düşsəm də elimdən,
Mövlam tutdu əlimdən.
Haqq düşmədi dilimdən,
Tanrımı unutmadım!

Hər yetən bir daş atdı,
Atdı, günaha batdı.
Sadəyəm, bəxtim yatdı,
Tanrımı unutmadım!

RÜBAİLƏR

Ver yeyim, ört yatım deyəndən olma,
Qısa-yarıçılpaq geyəndən olma.
Səndən bir xahişim, bir istəyim var,
Düzəlmiş işləri əyəndən olma!

***

Bu sözlərdə çox hikmət var deyirlər,
Gözəl üzdən tez doyular deyirlər.
Ağıllı baş, dərin kəlam başqadır,
Gözəl sözdü insana yar, deyirlər.

***

Yerdə torpaq, göydə günəş, ay ollam,
Dəniz mənəm, dərya mənəm, çay ollam.
Qorxaqlarla, namərdlərlə işim yox,
İgidlərə, ərənlərə tay ollam.

***

Qədimlərdən faniliyin bilini,
Haqq deyənin kəsdirirsən dilini,
Yalan dünya, Sadəni də ağlatdın,
Darda, gendə heç tutmadın əlini!

***

Sən dərd verdin, fələk, demə götürdüm,
Çox payımı gur çaylara ötürdüm,
Fağır-fağır qabağında durmadım,
Atişləməz yollarına tüpürdüm.

Gəl belə qınama, ey nadan, məni,
Bir gün də güldürər Yaradan məni.
Qulluğunda kəniz oldum, qul oldum,
Ağ idim, seçmədin qaradan məni.

***

Dünyamıza duman çöküb, çən gəlir,
Ağzın açsa-nəfəsindən qan gəlir.
Düşünmə ki, ədaləti, arı var,
Zəy-zəhəri dağlar ilə tən gəlir.

***

Ey Səringül, yığ ağlını başına,
Gəl güvənmə torpağına-daşına.
Əzəlindən dünya yalan dünyadı,
Bir də baxdın zəhər qatdı aşına.

***

Doyunca ağladıb Yaradan məni,
Fələk vurub salıb sıradan məni.
Yaxına-uzağa, hara getsəm də,
Dərd tapır, bilmirəm haradan məni.

****

Yığdığını Allah alsın əlindən,
İyrənmişəm sənin zəhər dilindən.
Kim inanar, sənə edər etibar,
Ayrılmısan qohum-qardaş, elindən!

Dost-yoldaşın qudurğandan, harından,
Gözlərin doymayır dünya varından.
Unutmusan insaf, dini, mənliyi,
Danışırsan yemək-içmək, qarından!

***

Mən söhbət açıram dədə-babadan,
Sənsə danışırsan çömçə, tavadan.
Bizim söhbətimiz tutarmı, söylə,
Sənin xəbərin yox eldən-obadan!

***

Qərib olan bilər qürbət dərdini,
O, unutmaz verdiyi bir vədini,
Heç bilmirəm qanlı fələk nədənsə,
Hey ağladır insanların mərdini.

***

Fələk qəriblərdən üzmü döndərib,
Hər dərdi-bəlanı bol-bol göndərib.
Uzaqda-yaxında qərib olan kəs,
Tər gül əvəzinə tikanlar dərib.

***

Səni yaxşı biləmmədim heç zaman,
Sənlə birgə güləmmədim heç zaman.
Anlamadım canavarsan, ya quzu,
Bir qərara gələmmədim heç zaman.

Ali savad alan elə gəlin var,
Evdəki qarını yaşıdı sanar.
Ədəbdən-ərkandan olmaz xəbəri,
Əri də susmağa eyləyər vadar.

***

Qadın gözəlliyi bəzəklə deyil,
Nə lazım rənglərə salasan meyil.
Dinlə qocaları, öyrən hikməti,
Qadın gözəlliyi namus-ardı, bil!

***

Yetərincə mən edirəm marağı,
Hər bir qadın qarşılamaz qonağı.
Allah versin comərdlərin qismətin,
Yaxşı gəlin sevinc-şadlıq bulağı!

***

Qadın var yerindən qalxır günorta,
Görürsən qarşında bir yoğunorta.
Baxmır ev-eşiyə, qapı-bacaya,
Boylanır həmişə şirniyə-torta.

***

Yasda hırıldayıb gülən görmüşəm,
Vaya da bəzənib gələn görmüşəm.
Abırı-həyanı bir yana atıb,
Altın-axça üçün ölən görmüşəm.

Neçə sinələri qəm-qubar alıb,
Çoxları mənim tək yanıb-qaralıb.
Bəxti verən verib, indi neyləyək,
Bizə kef çəkmək yox, dərd çəkmək qalıb.

***

Uzaq düşdüm mən obamdan-elimdən,
Tək-tənhayam, tutan yoxdu əlimdən.
Yamanlığa yozurlar hey zalımlar,
Nə söz çıxsa bil ki, mənim dilimdən!

***

O can ölsün bir cananı sevməyə,
Bağça-bağı, gülüstanı sevməyə.
Düşmənidir Səringülün o kəs ki,
Borçalını – Gürcüstanı sevməyə!

***

Süd gölündə üzüb, bələnsən zərə,
Heç zaman özünü öymə boş yerə.
Dinlə sən Sadənin məsləhətini,
Tanrım lovğaları yıxıb min kərə!

***

Qapalı insanı duymaq çətindir,
Anlaya bilməzsən, yüz onu dindir.
Qapalı insan da birdən qaynayır,
Açıb qapağını tez onu sendir!

Duzumu dadan kəs duzdan istəyir,
Gül verdiyim kəs də güldan istəyir.
Bilmirəm nədənsə, qohumun çoxu,
Gəl vuruşaq deyib, meydan istəyir!

***

Məni incitməyi sayırlar haqlı,
Məni bəyənməyir kirli-pasaqlı.
Doğrunu-düzgünü, qədirbiləni,
Sadəyəm, gəzirəm əliçıraqlı.

***

Bu belədir – Paris, Pekin, həm Şamda,
Kasıb adam unudulur bayramda.
Varlı isə təkrar təbrik edilir,
Nələr varmış, çiy süd əmmiş adamda.

***

Səni unutmuşam, bir yad bilmişəm,
Xəyal dünyamdan da tamam silmişəm.
Sonradan anladım, duydum bunları,
Sənin aləmində kömür-külmüşəm!

***

Dünyanı tor görür gözüm nədəndi,
Əyriyə yozulur düzüm, nədəndi.
Özüm ayaqüstə zorla gəzirəm,
Yel atında çapır sözüm nədəndi?

Deyirlər qozbeli düzəldər qəbir,
Düzələr işin də, eyləsən səbir,
Əyri yaranıbsa əgər bir insan,
Düzəlməz ömründə, yüz eylə tədbir.

***

Arvad var ki, qasırğadı – tufandı,
Əqrəb kimi hər yetəni çalandı.
Düşünmə ki, yaşa dolub, söz qanar,
Nə olsa da, ilan yenə ilandı.

***

Qadın var ki, qırx qazana çalası,
Bitmək bilmir qışqırığı – davası,
Bezdirir canından qohum-qonşunu,
Beləsinin tez paylansın halvası.

***

Heç bilmirəm niyə dərdə tuş oldum,
Bahar idim, bir boranlı qış oldum.
Tufan qalxdı düşdüm qara-çovğuna,
Qanadları sınmış tənha quş oldum.

***

Çömçə tutan, qələm tutan, bel tutan,
Bunlar üçün vermək olar can qurban.
Gözdağıdır, zəhləm gedən insandı,
Kim əlində qədəh tutur hər zaman!

Dünya bağdı, biz o bağın barıyıq,
O, çiçəkdi, üstündəki arıyırıq.
Gedəsiyik, qalan deylik cahanda,
Əvvəl-axır biz torpağın yarıyıq!

***

Büllur bulaqlardan sular içmişəm,
Qardaş-bacı üçün candan keçmişəm.
Düşmüşəm Vətəndən çox uzaqlara,
Bilmirəm nədənsə qürbət seçmişəm.

***

Mənim sözlərimi nə bilir nadan,
Yalandan yaşayır yalan danışan.
Qeybət eyləyənin hörməti olmaz,
Bir gün də utanıb olar pərişan.

***

Yemək üçün eyləyirsən sən qılıq,
Sənin işin yalançılıq, yaltaqlıq.
Boğaz üçün boğazını çəkirsən,
Bu tərzdə göstərirsən ustalıq.

***

Tanrıdı, hərəyə bir qismət yazar,
Çoxu havalanıb yolunu azar.
Səhər günəşinə isinməyən kəs
Axşam günəşinə bəs necə qızar?

Dünya, səndə ağlayan çox, gülən yox,
Qarnındakı dərd-azarı bilən yox.
Qan ağlatdın neçə-neçə insana,
Ona görə gedib geri gələn yox!

***

Hörmətsiz eyləmə saçları çalı,
Fələk qismətini tez yerə çalı.
Hamı müştaqdısa palıda, sərvə,
O da gərəklidi becər həm çalı[1].

***

Dünya şahmat, xanadakı daş bizik,
İnsan oğlu, bir köçəri quş bizik.
Fələk oyunçudu, girmə oyuna,
Fitnəyə, fəsada, dərdə tuş bizik!

***

Fələk belə yazdı mənim yazımı,
Zimistan eylədi bahar-yazımı.
Kədərdən, möhnətdən qarışdı başım,
Bilmədim qarşımda dağmı, yazımı?[2]

***

Dağlayar sinəmi, dərd eylər sitəm,
Yaş deyil, qan tökər Nəbiyə didəm.
Qardaşım getdisə Haqq dərgahına,
Mənə qalan oldu göz yaşı, matəm!

[1] Çalı – kol bitkisi

[2] Yazı sözü burada çöl, düz mənasında işlənib.

***

İnsan ömrü qüssə-kədər, vay imiş,
Bu Tanrıdan bəndəsinə pay imiş.
Gecə yatıb, ruh bədəndən ayrılsa,
Yüz illərin ölüsünə tay imiş!

***

Göydə ulduz, səpələnmiş közümdü,
Çaxan şimşək haqsızlığa sözümdü.
Ümidimdi gördüyünüz dan yeri,
Buludsa arzumdu, düzüm-düzümdü.

***

Naz eyləsən, naz eyləyər gül sənə,
Ver ətrindən, ətir versin gül sənə.
Anlamayan bu dünyanın işini,
Qan-yaş töküb ağlasa nə, gülsə nə?

***

Məni bəxtdən, bəxti məndən qovan yar,
Qorx Tanrıdan, haqq-ədalət, divan var.
Heç bildinmi vurdun, yıxdın, neylədin?
Gen dünyanı sən başıma etdin dar!

***

Zalım olub susamaya yar qana,
Yar dərdini yar anlaya, yar qana.
Aşıb-daşan, boz-bulanlıq sel olub,
Döndərməyə yar könlümü yarğana!

***

Səringüləm, gülüstanda gül mənəm,
Könülqırmaz, ürək açan dil mənəm,
Yer altından püskürən od ahımdı,
Əsli yandı, yanmamışkən kül mənəm!

***

Vurar, namərd ovçu yaralar məni,
Tapar qollarına yar alar məni.
Gedər, canda qalmaz bir dərdi-sərim,
Öldürəmməz belə yaralar məni.

***

Bir qoca dərvişəm, gündüz, həm gecə,
Bilmirəm dünyanı gəzirəm necə.
Bir an mürgülədim, oyatdı bir səs,
Ey qafil, qalx, oyan, hazırlaş köçə.

***

Min cığırı, min yolu var, min izi,
Min doğrusu, min əyrisi, min düzü.
Sehrbazdı, kələkbazdı bu dünya,
Var hiyləsi, min sifəti - min üzü.

***

Ömür dağdı, zirvəsində qarıyıq,
Dünya bağdı, biz bu bağın barıyıq.
Tanrım yazıb, yaranışdan deyirlər,
Torpaq aşiq, biz sevgili yarıyıq.

***

Az dinləyən, az oxuyan az anlar,
Haqqı bilməz Haqq yolunu azanlar.
Göydən yerə nur çilənir elə bil,
Nə zaman ki, çəkiləndə azanlar.

***

Yazı yazan nədən yazıb tərsinə,
Qaniçənə qismət olub tər sinə.
Deyirlər qozbeli qəbir düzəldər,
Bilirsənsə, de düzəldər tərsi nə?

***

Qurban olum Allahıma söz verib,
Ocağıma heç sönməyən köz verib.
Əsas deyil var-dövlət də, para da,
O əsasdır, ağıl verib, göz verib.

***

Bəxtəvərdi ərdən alan, ər sözü,
Əksən yerə, yer bitirməz şər sözü.
Yalandısa, karvan çəkməz hər sözü,
Sadə sevir doğru-dürüst, tər-sözü.

BEYTLƏR

"Allah" deyir dağlar-daşlar, göy belə,
Nələr diləyirsən, Tanrıdan dilə!

***

Uyma yamanlara, cəhənnəm də var,
Yaxşılar içində çalış, tut qərar.

***

Qardaş bilən bacanağı hər zaman,
Peşman olub, sonda çəkər ah-aman.

***

Gəl göndərmə dövlətliyə pay sıx-sıx,
Sən kasıba bacardıqca ənam çıx!

***

Yaxşısı az, yamanı çox dünyanın,
Gülüşü az, amanı çox dünyanın.

***

Kədər bağçasının dost-həyanıyam,
Dərd-azar bağının mən bağbanıyam.

***

Tam açmır kimsəyə qapını aləm,
Kimsənin dərdinə olmayır məlhəm.

***

Hər güllü don geyən olmaz gül sevən,
İncə qəlbli olmaz hər bir gülbədən.

Qurtaran ha deyil dünyanın qəmi,
Hönkürtü-hıçqırıq, dərddi hər dəmi.

***

Bu dünya çoxunu dərddən ağladıb,
Qırmızı gərdəyə qara bağladıb.

***

Dünya gəldi-gedər, fanidir, fani,
Kədəri bol-boldur, sevinci ani.

***

Bu dünyanı qınamayım, neyləyim,
Ağır gəldi ilim-ayım, neyləyim?!

***

Qadın var ki, sığal çəkər pişiyə,
Ancaq baxmaz heç ürəkdən kişiyə.

***

Nənənin-babanın qüruru nəvə,
Onların ümidi, göz nuru – nəvə.

***

Qohumları sevdim ürəkdən, candan,
Çoxları nədənsə baxdılar yandan.

***

Qohum bilməyəndən, çalış kənar dur,
Heç zaman o sənə gətirməz uğur.

***

Necədir, neyləyir – bilinmir insan,
Gah zəhər düzəldir, gah da ki, dərman.

***

Əgər tərifləsən sən bir sarsağı,
Zənn edər özünü Himalay dağı.

***

Pul ilə ölçülmür insanlıq, inan,
Tək mal-dövlət deyil hər dərdə dərman.

***

Bu qoca dünyada gərək hər adam,
Allahın adını zikr etsin müdam!

***

Allahı çağırıb işlərini gör,
İnsafdan-mürvətdən bir kaşənə hör!

***

Tanrım kərəm edir hər bir quluna,
Həmişə baş vur sən onun yoluna.

***

Ümidini bağla böyük Allaha,
Tamaha bağlanıb batma günaha!

***

Doğma Vətən üçün bir iş görməsən,
Demək yaşamırsan, sürünürsən sən.

***

Yadda qalmaz tək yarını səsləyən,
Hörmətlidi ata-ana bəsləyən.

***

Sənə üz tuturam mən dönə-dönə,
Tanrım, kömək eylə dərdli bəndənə.

***

Tək təmiz geyənə deyilməz təmiz,
Ürəyi təmizdən bəhs edirik biz.

***

Gözəl Tanrı əsəridir – məsəldir,
Gözəl elə, bəzəksiz də gözəldir.

Artıq tamah cəhənnəmin közüdü,
Canda qalan yarasıdı, izidi.

***

Var-dövlət tutubsa kimin gözünü,
Vecə almaz ağsaqqalın sözünü.

***

Öz nəfsinə, tamahına qul olan,
Düz söz deməz, o söyləyər ağ yalan.

Kimlər ki, yapışır dünya varından,
Bağ salır, dadmayır öz nübarından.

***

Xeyirxahlıq qoy başında tac olsun,
Qoyma sənin ətrafında ac olsun.

***

Tamahkarın olmaz dini-imanı,
Gözü doymaz, bağışlasan cahanı.

***

Tanrım yaradıbdı dünyanı gözəl,
Eşqi yaradıbdı ondan da əzəl.

***

Min il keçsə ölən deyil insanlıq,
Eyləməyin yalançılıq, yamanlıq.

***

Eşqdir təməli yerin-göyün də,
Eşqsiz ətri yoxdu açan gülün də.

***

Bir memar sevgisiz qurarsa saray,
Tezcə divarları tökülər lay-lay.

***

Baş açılmır bu dünyanın işindən,
Qurtarmayıb bir kimsə də dişindən.

***

Kimsəni incidib eyləmə zülmü,
Gör yaxşı işləri, unutma ölmü.

***

Yamanlığın can yandıran közü var,
Yaxşılığın könül açan sözü var.

***

Dövlətinə qarşı kim etsə üsyan,
El onu eyləyər yer ilə yeksan!

***

Bu dünyanın təpəsinə daş mənəm,
Öc almaqda hamılardan baş mənəm.

***

Dünya üzük, haqq-ədalət qaşıdı,
Şər-böhtanı başa dəyən daşıdı.

***

Ruh inamdı, çıxsa geri gələrmi?
Dirilik suyu içib düzlük, ölərmi?

***

Doğru-düzgünlükdə ulu öndərim,
Ustadım İladi dürüm-gövhərim.

***

Fəxr, vüqarımız Müşfiq Borçalı,
Vətəndi, millətdi cahi-calalı.

***

Gözəllik vurğunu nəğməkar şair,
Candarlı Sərxandı şeirdə mahir!

***

Var olsun, şen olsun ulu Borçalı,
Sadəyə Vətəndi cənnət misalı.

***

Mələklər ağladır sözü-avazı,
O Salman Qazidən Allah da razı.

***

Darda qalanlara kim olsa həyan,
Tanrım eylər onu şad-xürrəm, şadman.

***

Haqqı bilən deyər Haqqın sözünü,
Tamaha-harama dikmə gözünü.

KİTABIN İÇİNDƏKİLƏR

Bu çəmənin gülü rəng-rəng...(***Elxan Məmmədli***). 3
Üz tut yenə dağlara 11
Bayatılar 12

Qoşmalar və müxtəlif hecalı şeirlər

Bu kitab. 14
El dərdi. 15
Siz məni dağlara tezcə çatdırın. 16
Qıyırlar. 17
Yox. 18
Allah eşqinə. 19
Adam var ki 20
Söz var 22
Hec bizim dağların əvəzi yoxdur. 24
Tanrımın. 25
Dünyanın. 26
Söyləyin. 27
Borçalı. 28
Edək. 29
On bir ayın sultanı. 30
Bu bayram. 31
Əylən-əylən. 32
Qanlı fələk. 33
Nəsihət. 34
Dəli kimi sevirdim bir oğlanı. 35

Gözəl. 36
Eylə-eylə. 37
Dünyanın. 38
Ey Pərvərdigar. 39
Bacı qardaşından üstündü-üstün!. 40
Qadın var. 41
Dünya. 42
Könlüm. 43
Deyir. 44
Vətən həsrəti. 45
Bacılarım. 46
Söz deyərəm. 47
Ağlar-ağlar. 48
Bacı. 49
İndən belə. 50
Ağlar. 51
Seç yaxşıdan yamanı. 52
Sadəyəm, xatirəm qalsın söylədim. 53
Balalarıma nəsihət. 56
Nəsihət. 58
Ağlamasın. 60
Halal eyləmirəm. 61
Allahım insanı uzaq eyləsin. 62
Öyünmə. 63
Dünya. 64
Könül evim. 65
Göylərə ucaldı hey ahım-ünüm. 66

Dünya.....67
Kədərim mənim.....68
Ağlaram.....69
Olmasın.....70

Gəraylı və müxtəlif hecalı şeirlər

Canım Başkeçid.....72
Dağlar.....73
Dağlar.....74
Halal olsun.....75
Bizim dağlar.....76
Məni dağlara yetirin.....77
Ver.....78
İncitməyin anaları.....79
Yaxşı insan dediyin.....80
Mənim.....81
Məni.....82
Dünyanın.....83
Mənəm.....84
Demişəm.....85
Yıxılana gülmə.....86
Dərdin alım!.....87
Tanrım özü saxlasın.....88
Bacar günah eyləmə.....89
Desinlər.....90
Paxıllıq.....91
Yox qanacaq-mərifətin.....92
Eylə.....93

Qəm olubdu bəzəyimiz. 94
Çalıb-çapan dünyasıdı..... 95
Yaxşılıqdı yadda qalan. 96
Bu dünyanı zindan sandım. 97
Dözəmmirəm. 98
Yardan ayrılan. 99
İnanın mənə! 100
Qohum var ki. 101
De..... 102
Ay ciji, bir imdad elə..... 103
Oynayır. 104
Bu qız. 105
Daha məndən gen dolanır. 106
Dünyamız. 107
Gəlib çıxmadın..... 108
Ümidlərim səndədir. 109
Dedim. 110
Olar. 111
Sarı yarğan, sarı bulaq. 112
Səhər-axşam. 113
Dünya..... 115
Dağlar..... 116
Qürbət eldə keçən ömür..... 117
Agah olsun dostum-yarım. 118
O gözəlin. 119
Gəldim. 121
Qəribin. 123

Bu dünyanın.....124
Öldüm, Allah, dərd əlindən!. 125
Gözəldə hörmət gərək. 126
Ulu Tanrım. 127
Sən xəbər al. 128
Olur. 129
Bizim könül köşkümüzün.....130
Qürbət elin qaydası bu. 131
Qara tellərin 132
Ağrın alım. 133
Görər-görməz. 134
Olmaz əhdi-ilqarı. 135
Apardı. 136
Gün taxtına çıxanda. 137
Bir körpənin gülüşü. 138
Zalım şahın aqibəti.....139
Sənin doğduqların.....142
Demədimmi. 143
Dünya.....144
Ruhum. 145
Gözəl. 146
Başkeçid. 147
Adam da var, adam da. 148
Ay quzu otaran oğlan. 149
Sevdim. 150
Ölüm. 151
Yoxdu. 152

Bizim Qorqud dədəmiz.....153
Hər bir qadın.....154
Tanrı.....155
Dünyamızın.....156
Vətən.....157
Tanrım versin ruzisini həmişə.....158
Qardaş-bacı.....159
Kəndim.....160
Eşq.....161
Bizim hər bir qadınımız.....162
Biz.....163
Salam olsun.....164
Dilim mənim.....165
Qadın.....166
Eylə dərdin dəvasını.....167
Ərkanlıya can qurban.....168
Eylər.....169
Dünya.....170
Gəlib məni qinayır.....171
Başqa qohum axtarırsan.....172
Bilin ki, bizdən deyil.....173
Bizim bəzi qohumlar.....175
Yoxdu.....176
Neyləyim mən.....177
Kələksən.....178
Deyirsən.....179
Dərd.....180

Davam eylə. 181
Köçürsən, köç. 182
Dünya 183
Nə gəzir. 184
Olmayın siz. 185
Yandırmadım ömrümü mən. 186
Mən xəyalən göylərdəyəm. 187
Məni dağlara yetirin. 188
Qürbət. 189
Dərdlərimiz 190
Üstünə. 191
Ağlanası çox canlar var. 192
Dünya mənlə öcdü niyə? 193
Var gileyim. 195
Nə eyləyim. 196
Dünya 197
Günüdür. 198
Dərdə divan eyləmişəm. 199
Ağrın alım. 200
Gəlin. 201
Deyiləm 202
Var. 204
“Ay daş atan bəxtəvər”. 205

Ağlama, şəhid anası. 207
Könlüm. 208
Başı arvad qoltuğunda. 209

Gözəl. 210
Olam. 211
Olaydım. 212
Hüseyn. 213
Fatimeyi-zəhra. 214
Oldum. 215
Can evim. 216
Fələk. 217
Dünyanın. 218
Nolur. 219
Hamı desin bərəkallah. 220
Qadın. 221
Mənim. 222
Yenə həmin dünyadı. 223
Səni. 224
Könlümün. 225
Olmur. 226
Eyləyər. 227
Getdi. 228
Ağlayaq. 229
Oynasın. 230
Azərbaycan əsgəri. 231
Zalım oğlu. 232
Bizim ulu Borçalımız. 233
Olmasın. 234
Olsun namərdin. 235
Ay üzüdönmüş yarım. 236

Könlüm. 237
Gətir..... 238
Yara yaman qandıran. 239
Tanrımı unutmadım. 241
Rübailər 242
Beytlər 255

SƏRİNGÜL SADƏ

KÖNLÜMÜN BARI

"Elm və təhsil" nəşriyyatının direktoru:
İnal MƏMMƏDLİ

Dizayner: **Zahid Məmmədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**
Kompüterdə yığan: **Validə BƏDƏLOVA**
Dizayner: **Vüsal ABİYEV**
Üz qabığının dizaynı: Vüsal Əmirov

Çapa imzalanmış 19.12.2024
Şərti çap vərəqi 18. Sifariş № 632
Kağız formatı 60x84 1/16. Tiraj 100

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4